www.kitabxana.net

Milli Virtual Kitabxananın təqdimatında

Güləmail Murad

Yazmadıqlarım qapımı döyür

2012

YENI YAZARLAR VƏ SƏNƏTÇILƏR QURUMU. E-NƏŞR N 42 - 2012

www.kitabxana.net

Milli Virtual Kitabxananın təqdimatında

Elektron Kitab N 42

YYSQ - Milli Virtual Kitabxananın e-nəşri N 42 - 2012

Güləmail Murad

YAZMADIQLARIM

QAPIMI DÖYÜR

Bu kitab Güləmail Muradın sayca yedinci kitabıdır. Oxucu artıq onun könül dünyasına, bu kitablarda toplanan şeirlər vasitəsilə bələddir.

Yəqin ki, dəyərli oxucu bu dəfə də Güləmaili misra-misra oxuduqca qəmdən, tənhalıqdan bezib işığa yol gedən bir ürəyin çırpıntılarını duyacaq.

YYSQ - Milli Virtual Kitabxananın e-nəşri N 42 - 2012

Virtual redaktoru və e-nəşrə hazırlayanı:

Aydın Xan (Əbilov) - yazar-kulturoloq

YYSQ - Milli Virtual Kitabxana

Bakı – 2012

Güləmail Murad

“Elm və təhsil”
Bakı - 2012

Redaktor: **N. Cəfərov**
AMEA-ın müxbir üzvü, millət vəkili

Güləmail Murad. Yazmadıqlarım qapımı döyür.
Bakı, «Elm və təhsil», 2012. 184 səh.

Bu kitab Güləmail Muradın sayca yedinci kitabıdır. Oxucu artıq onun könül dünyasına, bu kitablarda toplanan şeirlər vasitəsilə bələddir.

Yəqin ki, dəyərli oxucu bu dəfə də Güləmaili misra-misra oxuduqca qəmdən, tənhalıqdan bezib işığa yol gedən bir ürəyin çırpıntılarını duyacaq.

$\frac{4702000000}{N098-2012}$ qrifli nəşr

© «Elm və təhsil», 2012

TƏBƏSSÜM... tənhalıq...ümid

Mənim Güləmail Muradı - Qazax elinin bu şair qızını tanıdığım vaxtdan yeddi il keçir. Bu yeddi ildə bəlkə bir yetmiş dəfə rastlaşmışıq və həmişə onun üzündə-gözündə mehriban, xoş, ürəyə gedib çatan təbəssüm görmüşəm. Onun şeirləri də bəlkə elə bu təbəssümün işığında yazılıb. Güləmail Muradı həmişə özü kimi şair xanımların əhatəsində görmüşəm. Onların hamısı bir yerə yığışanda əlvan işıq, təbəssüm dənizinə düşürəm.

Amma Güləmail Murad şairdir, həm də müasir şairdir və bütün tanıdığım şairlər kimi o da tənhadır. Şairin nə üçün tənha olduğunu, niyə yüz adamın içində belə özünü tənha hiss etməsini onun taleyinə yazılan alın yazısı hesab edirəm. Amma şair üçün tənhalıq boşluq deyil. Arzularının, xəyallarının haçansa bir ümid qapısından girəcəyi günü gözləmək, gözləməkdir...

Gözlərimdə,
gecənin tabutu,
işığa yol gedirəm...

Bax, Güləmaili bir şair kimi misra-misra oxuyanda qəmdən, tənhalıqdan bezib işığa yol gedən bir ürəyin çırpıntılarını duyuram.

Yandırır dilini-
Dilsiz yanan bu şam,
Kədəri çox ki!..
Ürəkdir yanan, hər gecə,
Dili yox ki,..

Güləmailin bu qısa- miniatür şeirləri mənə daha xoş gəlir. Fikir, məzmun üç, dörd, beş misrada öz poetik ifadəsini tapırsa...çox əla!

Kürdə doğulmuşam,
Arazda axıram...
Laldır Arazın axışı...
Araz-
Şəhriyarın göz yaşı.

Başqa şair olsaydı, bəlkə də bu məzmunu, bu mənanı çox uzun bir şeirdə canlandırardı. Amma...cəmi beş misra kifayət eləyir ki, çox nadir, hələ bu vaxta qədər rast gəlmədiyim bir bənzətmə ilə üzləşəsən: Araz- Şəhriyarın göz yaşı.

Ürəyimdən
axan qan rəngi.
Nar ağacı, nar çiçəyi.

Başqa şair olsaydı, ürəkdən axan qanın rəngini narın özünə bənzədərdi. Amma qanın rəngi ifadəsi ağaca və çiçəyə bənzədiləndə bu assosiativ təfəkkürün hesabına yaranır. Bir-birindən uzaq nəsnələr, anlayışlar hibridləşir.

Güləmail nə yazırsa, ürəkdən yazır. Yaza bilmədikləri də ürəyindədir. Ürək onun şeirlərinin əsas qəhrəmanıdır.

Səndə ürək yoxkən,

Ürəkdən-
nə yazım axı?

Bəli, ürəkdən gələn şeir onu duyanlar üçün yazılır.

Hər nidamda -
bir sevinc.
Hər sualımda-
Azərbaycan-
yaralı bir varlıq.
Şuşa, Qarabağ-
öz tarixini başladı.
Ürəyimdən.

Güləmailin təbiətə vurğunluğu da təbiidir, yalançı, süni rəng deyil. Onun bir çox şeirlərində dağlardan, çöldən-çəməndən ayrı düşmüş bir kənd qızının həsrəti ifadə olunur.

Dağlar ona uşaqlığının mehini gətirir, o, dağ çaylarının gur şəlaləsini anasının əllərinə bənzədir (nadir bənzətmədir!). Dağlara sevgisi bir şeirində görün necə ifadə edilib:

Qışdır... tənhadır mənim kimi.
Neynəsin axı bu dağlar?
Üstünü küləklər qamçılayan,
yağış döyəcələyən,
qar bürüyən,
başı bəlalı, sinəsi dağlı.
Vüqarlı dağlar-
Görüşə çağırıb məni.

Şairləri yazdıqları şeirlərin mövzularına görə "lirik", "ictimai", "fəlsəfi" deyə bölgüləşdirməyin ziyanını dönə-dönə çəkmişik. Güləmailin şeirlərində müasir dövrümüzün ictimai-siyasi hadisələrinə münasibəti də hiss edirik və onun ürəyinin fırtınasının bu şeirlərdə də görə bilirik. Onun "Şəhid atası" şeiri fikirimcə, ən gözəl şeirlərindən biridir:

Oğul qapısının
Açarı itmiş.
Atanın dərdi danışır-
dərmanı dərd yazan fələk,
Ürək qan içində
Ürək ağlayır,
Neynim ki- dərd yükünü
qoymağa yer axtarıram...

O da bir ana şair kimi dünyanı qan rəngində görmək istəmir .O, sülh arzulayır.

Mən Güləmailin sərbəstdə yazdığı şeirləri daha çox bəyəndim və içimdən qeyri-iradi bir sual qopdu: Əcaba, sazlı-sözlü, bayatılı-qoşmalı təcnisli bir diyarın yetirməsi Güləmail sərbəstə niyə belə bağlanıb?

Amma burda elə bir qəribəlik də görmədim: istedad üçün vəznin, ölçünün, formanın heç bir önəmi yox... Onun hecada yazdığı şeirlər də sərbəstdə yazdığı şeirlər kimi səmimidir. Fikirlə hissin, ürəklə ağılın vəhdətindən yaranır.

Güləmailin çoxlu ithaf şeirləri də var. Hamısı da səmimidir. Xüsusilə akademik Teymur Bünyadova həs etdiyi poema onun adına layiqdir. Mən Güləmail Muradın beş misralı bir şeiri ilə sözümü bitirmək istəyirəm:

Taledən küsüb
inciyəndə,
yazmadığım şeirlə
içimdə bir fırtına—
qapımı döyür.

Qoy bu fırtına həmişə sənin ürəyinin qapsını döysün, Güləmail xanım!

Vaqif Yusifli,

filologiya elmləri doktoru.

22.02.2012.

KÖNÜL QAPINIZI AÇIQ SAXLAYIN!

Şair Güləmail Muradın şeirlərini oxumağa başladınsa onda qeyri incilər axtarmağa çalışırsan. Çünki Güləmail şeiri şeir xətrinə yazmır. Onun misraları öz könül kövsərindən cənnət şərabı kimi süzülür. Güləmailin özəl xüsusiyyətlərindən biri də budur ki, o, poetik ifadələri maddiləşməkdən qoruyur. Daha doğrusu söz oxucunun üzünə metaforik baqilikdən boylanır. Oxucu Güləmail Muradın şeirlərində adı çəkilən əşyanı təbiət təsvirləri ilə yox ("Gəmi", "Düymə axtarır" şeirlərində olduğu kimi), şair təfəkkürünün dərinliklərindəki cizgilərlə seyr edir. Bu mənada Gülamil Muradın qələmi alqışlanmalıdır.

Güləmailin ünvanlı şeirlərinin də ("Bilmirəm dərdimi kimə deyim mən?", "Bir Leyli apardılar", "Vahid", "Naziləm xoş gəldi Azərbaycana" və s.) az olmadığını qeyd etmək istəyirəm. Həmin şeirlərin tərkibində stereotip ifadələr kifayət qədərdir, buna baxmayaraq, müəllif onlardan ustalıqla istifadə edib. Elə buna görə də, Güləmailin barəsində söhbət açdığımız poetik yaradıcılıq nümunələri də eynilə öz bakirəliyini qoruya bilib.

Güləmail Muradın müxtəlif janrlarda yazdığı xiffət, hüzn dolu şeirlərinə də ("Bu bahar", "Yad edəcək", "Qarıyacaq" və s.) tez-tez rast gəlinir. Müəllifin bu üslublu şeirlərində onun nisgillə yüklənmiş harayı, haqqın bərpası, hüququn qorunması ilə çulğalanıbdır. Güləmail Murad nəinki şeirlərində, müxtəlif səpgili poemalarında da fikrini oxucuya aydın çatdıra bilmişdir.

Mən, şair Güləmail Murad barəsində olan fikirlərimi "Lələkdən qələmə" adlı məqaləmdə əvvəl də qeyd etmişəm, ona görə də bu kiçik yazı ilə kifayətlənərək müəllifin yeni çap olunacaq "Qapımı döyən şeirlər" kitabını cani-könüldən qutlayaraq, ona hüdudsuz oxucu rəğbəti arzulayıram.

Hələ könül qapınızı çox şeirlər döyəcək, Güləmail xanım! Ona görə də qapınızı açıq saxlayın!

Elbəyi Cəlaloğlu.
Bakı, 20 fevral 2012-

YAĞMUR ŞAİRİ
GÜLƏMAİL MURAD

Şair kişilər daha çox sərgərdan olurlar, Allahın xoşbəxtləri həyatdan, ömürdən-gündən bezəndə şələ-küləsiz, boş əllə, boş çiyinlə sonu görünməz yollara varmağı bacarırlar.O yolların sonunda nə olacağı bəlli deyil. Bəlkə gözəl bir dağın zirvəsinə varacaqsan, bəlkə ayağını atanda uçruma düşəcəksən.

Bunlar ümid yolçularıdır; yol qaranlığının gözəlliyi elə bundadır.

Qadınlar isə doğulandan çiyni yüklüdürlər; bu yükü yerə qoyub, atıb gedə bilmirlər. Kövrək şairmiz Güləmail Murad dünyanın elə-belə işlərindən bezir.

-Dünyaya neyləmişəm ki,
Dünya başıma fırlanır.

Ona görə də hərdən baş götürüb itməyi gəlir. İlk baxışda oxucuya elə gəlir ki, şair könlünü qəmə verib, təkliyi, tənhalığı sevir,. Yox elə deyil! O, sözün dərinliyində şirinliyində itmək istəyir. Bu bəzən də məhəbbətin qoşa tənhalığıdır.

-Dünya- ulu dünyadan,
Qəmlə dolu dünyadan,
Sənlə bu dünyadan
Hərdən itməyim gəlir.

Güləmail yaradıcılığında şerin ovqatı var, bu günü, dünəni, bir anı var. Özü var, taleyi var. Şair öz taleyini heç kəsin ömür payına calamır, axı ömür yamaq deyil, hərdən bir ilmə, bir naxış, bir xana olmalıdır həyatda. Şeir yazmaq ilməni ilməyə keçirmək kimidir.

Qoy hər kəs yaralı bilə maili,
Çiçəyə maili, gülə maili.
Durnaya bənzədin Güləmaili,
Köçdən ayrı düşən durna kimiyəm.

Onun poeziyasında vəzin söhbəti yoxdur. Mən ilk dəfədi payızın yarpaq tökümü hüznünü belə pərişan görürəm. Payız fəslini çox sevdiyimdən bu şeiri kəsməyə əlim gəlmir:

-Yenə payız gəlir,
başlanır təbiətdə
yarpaq tökümü.
Ağaclar tökür öz yükünü.
Nə olaydı, kaş
Mən də tökəydim
dərd yükümü,
yükümü...

Güləmail poeziyamızın payız şairidir. Onun bütün şeirləri "Yağmur düası"dır. Yağmur yağsın ki, günə sərilən yetim ürəklər soyuya.

O, payız-göyərən"bar ağacıdır" deyir.

Güləmaildə şeirin bir anı tutumludur, poetik bənzətmələri uğurludur, təbiidir, ürəyi oxşayır.

"Yollar" şeirində deyir:

-Yollar...
ayaqlarımdan asılıb.

Bir həsrət üşüdür...
Gecənin qaranlığında...

Güləmail Muradın çoxlu ithaf şeirləri var. Mən bu ithaflara insanlara yarınmaq kimi deyil, onlara yanmaq, sevgizinin ifadəsi kimi başa düşdüm.

Onun hər misrası qəlbimizə rahatlıq verir, ayıldır, incə tellərdə titrədir. Sanki zərif pıçıltısını, ahəstə addəmlarını eşidirsən.

Adam var, mənə yaxınlaşdıqca ondan uzaqlaşıram. Güləmail Muradla hər ünsüyyətdən sonra mənə daha da doğmalaşır. Sinəmi, ürəyimi öz şeirlərinin ahənginə kökləyir.

ÇÜNKİ O,POEZİYAMIZIN YAĞMUR ŞAİRİDİ

Ürəklərimizdəki hisi-pası yuyub aparan, günəşi də nura çəkən yağmurun sairi.

Mahirə Abdulla.
10.04.2012.

Azərbaycanım, yaşa!

Ölkəmizin müstəqilliyinin 20 illiyi münasibətilə.

Ürəkdə qüdrətimsən,
Əməkdə şöhrətimsən,
Biləkdə qüvvətimsən,
Damarda qanım, yaşa,
Azərbaycanım, yaşa!

Qızıla "zər" deyiblər,
İgidə "ər" deyiblər,
Oda "azər" deyiblər,
Azər cahanım, yaşa,
Azərbaycanım, yaşa!

Çox olubdur dərdlərin,
Az olmayıb mərdlərin,
Saysızdır comərdlərin,
Comərd məkanım , yaşa,
Azərbaycanım, yaşa!

Əzabım çoxalanda,
Ümidim yox olanda,
Son anda, son gümanda,
Sənsən gümanım, yaşa,
Azərbaycanım, yaşa!

Arxam, həyanım olmaz,
Tabım, tavanım olmaz,
Olmasan, canım olmaz,
Ay mənim canım, yaşa
Azərbaycanım, yaşa!

18.11.2011.

BİLMİRƏM , DƏRDİMİ KİMƏ DEYİM MƏN?

Qazax rayon İcra Hakimiyyəti
Başçısının müavini Təhsil, səhiyyə
və mədəniyyət şöbəsinin müdiri bacım
Gülayə Həsənova ilə söhbətləşəndən sonra ona yazdığım giley...

Başa düşməyirsə əgər yarı, yar,
Bilmirəm, dərdimi kimə deyim mən?
Dərdimi danışsam bağrı yarılar,
Bilmirəm, dərdimi kimə deyim mən?

Tək-tənha nə qədər dərd daşıyıram,
Tapmıram başqa bir fərd, daşıyıram.
Bilin ki, dərdləri mərd daşıyıram,
Bilmirəm, dərdimi kimə deyim mən?

Deməyin " dərdinin harası dərin?"
Ağı üzdədirsə, qarası dərin.

Mənim dərdlərimin çarası dərin...
Bilmirəm , dərdimi kimə deyim mən?

Bilməm, nədən fələk mənə kəm baxdı?
Şeytan qulağına dünyanı taxdı.
Vallah, qınamayın dağ olan baxtı,
Bilmirəm, dərdimi kimə deyim mən?

Bir əlim, bir başım, yoldaşımdı dərd,
Ürəyimdə donan göz yaşımdı dərd,
Sirrimi daşıyan sirdaşımdı dərd,
Bilmirəm, dərdimi kimə deyim mən?

Deməyin gül dərdi, çəmən dərdidi,
Saralan qərənfil, süsən dərdidi.
İkiyə bölünmüş Vətən dərdidi-
Bilmirəm, dərdimi kimə deyim mən?

Mən Güləmailəm, sanmayın şadam,
Nə qədər adam var, hamıya yadam.
Görünmür dərdimə yanası adam,
Bilmirəm, dərdimi kimə deyim mən?

14.06.2011.

SAZ OXUYANDA

Gəldi yaz, yenə də güllü yazım var,
Yazmaya bilmirəm, yaz oxuyanda.
Güllər istəyirlər çox oxusunlar,
Bülbüldən küsürlər az oxuyanda.

Bağlar da, dağlar da gülüstan olur,
Çəmənlər xalı tək al-əlvan olur...
Sevənlər necə də xuraman olur,
İşvə rəqs edəndə, naz oxuyanda.

Yenə də sevinir sözüm, görmüşəm,
Yenə də heyrandır gözüm, görmüşəm.
Vallah , Güləmail, özüm görmüşəm,
Bülbüllər susurlar saz oxuyanda.

22.03.2010

BİR LEYLİ APARDILAR...

Hacı Omar Əfəndinin nəvəsi, Mirqasım Əfəndinin atası, görkəmli alim-professor, sovet məkanında ikinci oftalmoloq cərrah əmim Nazim Əfəndinin həyat yoldaşı Adilə xanımın vəfatı münasibəti ilə.

Gəldi, yaşadı, getdi bu fani cahanından,
Bir Leyli apardılar son mənzilinə bu gün.
Çoxdan getmişdi Məcnun Leylisinin yanından,
Bir leyli apardılar son mənzilinə bu gün.

Dünyanın çox gülü var, sevgi gülü dərdilər,
Həyatda neçə müddət birgə ömür sürdülər...
Görəsən o dünyada bir-birini gördülər?
Bir Leyli apardılar son mənzilinə bu gün.

Qəmin təntənəsiydi, qəm sarımışdı üzünü,
Kədər söhbət edirdi, dərd deyirdi sözünü,
Tək qalan vaxtlarda da tək görmürdü özünü,
Bir Leyli apardılar son mənzilinə bu gün.

Ömür adlı qalın bir kitab varaqlayırdı,
Ölüm qaçırdı, osa ölümü haxlayırdı.
Yaşamaq istəmirdi, ölüm soraqlayırdı,
Bir Leyli apardılar son mənzilinə bu gün.

Vidalaşdı ömürtək ən qiymətli varıyla,
Vidalaşa bildimi bütün arzularıyla?
Son mənzili necədir, birləşdimi yarıyla?
Bir Leyli apardılar son mənzilinə bu gün.

21.08.2011.

AZƏRBAYCAN- TÜRKİYƏ!

Təntənəsi, şöhrəti,
Şanıdır sirdaşlığın.
Azərbaycan- Türkiyə!
Zirvəsidir dostluğun,
Rəmzidir qardaşlığın,
Azərbaycan Türkiyə!

İki el arasında,
Nicat körpüsü var ki,
Ölümə zəfər çalan ,
Həyat körpüsü var ki
Azərbaycan- Türkiyə!

Bu ittifaq sınanıb,
Uzun illərdən bəri.
“Bir millət, iki dövlət”-
Dilmizin əzbəri,
Azərbaycan—Türkiyə!

Sədaqətlər azalmaz,
Məhəbbətlər tükənməz,
Deyibdir Məmməd Əmin:
“Bayraq bir daha enməz”.
Azərbaycan-Türkiyə!

Səmimidir sözlərim,
Bu dostuluq ki, bizdə var,
Zaman ötdükcə durar,
Dünya durduqca qalar,
Azərbaycan-Türkiyə!

20.07.2009.

DƏRD

Zavallı urəyim, kövrək ürəyim,
İstəmir ürəkdən poza dərdini.
Ürəyə nə deyim, qəlbə nə deyim,
Deməyir oğula, qıza dərdini.

Yazır sinəsinə sözləri şair,
Dolaşır dağları, düzləri şair,
İncitmək istəmir dəftəri şair,
İstəmir dəftərə yaza dərdini.

Həyata çox verib, az götürübdür,
İlham pərisindən naz götürübdür,
Qələmdən əl çəkib saz götürübdü,
Güləmail deyir saza dərdini,
Bəlkə tarixlərə yaza dərdini.

02.04.2009.

NAZILƏM XOŞ GƏLDİ AZƏRBAYCANA!

Türkiyədən Azərbaycanda keçirilən
Elmi Konfransa gəlmiş araştırmaçı -yazar,
Kadın Kolları Başkanı
Dr. Abbaslı Nazilə bacıma

Mübarək bir gündə, xoş bir məqamda
Naziləm xoş gəldi Azərbaycana.
Ona salam da bol, xoş ehtiram da,
Naziləm xoş gəldi Azərbaycana.

Dünənin sözünü bu gün gətirdi,
Xoş ovqat gətirdi, xoş gün gətirdi,
Bizə toy gətirdi, düyün gətirdi,
Naziləm xoş gəldi Azərbaycana.

Vüsal meyvəsinin dadını gördü,
Dillərdə Atatürk adını gördü,
Odlar diyarının odunu gördü,
Naziləm xoş gəldi Azərbaycana.

Hərçənd gözüm qalıb doğma vətəndə,
Rayihə gəzirəm güldə, çəməndə,
Vaxt gələr yanına gələrəm mən də,
Naziləm xoş gəldi Azərbaycana.

Biz birbirinizin dərdinə şərik,
Gözəl gözlərini gözlərimə dik.
Biz ki, bir millətik, iki dövlətik,
Naziləm xoş gəldi Azərbaycana.

04.11. 2011.

Naziləm, sənə şeirlər qoşub,
Anadil quşu kimi
nəğmələr oxuyaram.
Gözlərində yox, ürəyində saxla məni.
Ətirli çiçəyəm, əlində yox,
nəfəsində qoxla məni.
Kor aşiqəm,
Hərdən bir yoxla məni.

04.11.2011.

KÖVRƏLMƏ, KÖVRƏLMƏ, QARDAŞIM BELƏ

Kəndimin təəssübkeş oğlu, Azərbaycan Respublikası Prezidenti Yanında AAK-ın ekspert şurasının sədri, SSRİ Dövlət mükafatı laureatı Əfəndiyev İsrayıl Rüstəm oğlu ilə söhbətləşərkən aldığım kövrək duyğular…

Möhkəmlik, bütövlük ürəyimcədir,
Kövrəlmə, kövrəlmə, qardaşım belə.
Hərçənd ki, kövrələn ürək incədir,
Kövrəlmə, kövrəlmə, qardaşım belə.

Sarmasın heç zaman ürəyini qəm,
Sənə üz verməsin qüssə, dərd ələm,
Kövrəlmə özüm də kövrələ billəm.
Kövrəlmə, kövrəlmə, qardaşım belə.

Ana laylasını istəyir qardaş,
Dağın qayasını istəyir yurddaş,
Quran ayəsini istəyir yaddaş,
Kövrəlmə, kövrəlmə, qardaşım belə.

Çıraq ol, arxa ol möhtac olana,
Allah ömür versin, səni yüz yaşa.
Uca zirvələrlə dayan sən qoşa,
Kövrəlmə, kövrəlmə, qardaşım belə.

Günəş göy üzündən zərini ələr,
Elindən güc alan ucala bilər,
Bir-birindən gözəl, gəlsin fəsillər,
Kövrəlmə, kövrəlmə, qardaşım belə.

VURĞUNUM MƏNİM

Əbədiyaşar şairimiz Səməd Vurğunun
105 illiyi münasibətilə.

Məgər bağlar üçün darıxmadınmı?
Bağlardan gül üzən Vurğunum mənim.
Buz bulaqlar üçün darıxmadınmı?
Gözəlliyi süzən Vurğunum mənim.

Üzünü tutmusan fəraqa tərəf,
Nə yaman getmisən uzağa tərəf?!
Kaş yenə dönəydin Qazağa tərəf,
Darıxır dağ-düzən , Vurğunum mənim.

Neçin az tapılır şair sən boyda?
Niyə görünməyir mahir sən boyda?
Ürəyim yumruq yox, Göyəzən boyda,
Göyəzəndə gəzən Vurğunum mənim.

26.12.2011.

GƏMİ

Aman, fırtınanın kəsin səsini,
Hicran dənizində batır bir gəmi.
Dalğalar hey döyür göyərtəsini,
Hicran dənizində batır bir gəmi.

Tələsin, gəmini sudan çıxarın,
Köksünü yaranın köksünü yarın.
Gəmini lal yerə çəkib aparın,
Hicran dənizində batır bir gəmi.

İmdad olunmasa, var olmayacaq,
Şöhrəti dillərdə car olmayacaq,
Bir daha dənizə yar olmayacaq,
Hicran dənizində batır bir gəmi.

Acı göz yaşını şair hey silər,
Dünyanın işini Yaradan bilər.
Su üçün yaranan suda da ölər,
Hicran dənizində batır bir gəmi.

09.11.2011.

AĞLADI

Yazdım, söyləmədim dərdi heç kimə,
Qüssə kədərləndi, sitəm ağladı.
Oxucudan əvvəl mənim dərdimə,
Hönkürə- hönkürə qələm ağladı.

Eşqə düşən vaxtdan bəla çəkmişəm,
Yarımdan görməyib vəfa, çəkmişəm,
Bildikdə, nə qədər cəfa çəkmişəm,
Əsli fəğan etdi, Kərəm ağladı.

Halım, Güləmayıl, nə yaman oldu,
Məhəbbət çiçəyi saralıb-soldu.
Gözlərim dolanda gözləri doldu,
Neçə Leyli kimi sənəm ağladı.

5.01.2012.

GÖZLƏYƏCƏYƏM..

Çox sevdiyim bəstəkar- dramaturq bacım
Rühəngiz Qasımovaya

Səndən nə xəbər var, nə də səssəda,
Mən səni həmişə gözləyəcəyəm.
Gəlməyinə hələ güman yoxsa da,
Mən səni həmişə gözləyəcəyəm.

O zaman ki, səndən ayrı düşmüşəm,
Gözləmək olubdur ömürlük peşəm.
Heç kimi bu təhər gözləməmişəm,
Mən səni həmişə gözləyəcəyəm.

Əskik olmayacaq qəlbimdən bu yük,
Kaş, əskik olmasın heç kimdən bu yük!
Hövsələm də böyük, səbrim də böyük,
Mən səni həmişə gözləyəcəyəm.

Başımın üstünü qar alsa da lap,
Səbrim, işdi-şayət, daralsa da lap,
Kökü gözlərimin saralsa da lap,
Mən səni həmişə gözləyəcəyəm.

Nisgilin, həsrətin doludu canda...
Nə qədər ki, qalıb eşq odu canda,
Buna inansan da, inanmasan da,
Mən səni həmişə gözləyəcəyəm.

25.09.2010.

BU BAHAR...

2007-ci ildə İran səfərində olarkən yazdığım şeirlər.

Bu bahar bizə nə gətirəcək?
Ümidli bir çıraq
həsrət adlı Təbrizdə qaldı.
Yolum düşüb Araza-
bilmirəm axı, bahar bizə nə gətirəcək?
Qorxuram çox susa
könül sazım...
Bəstəsi qala
gələn yaza...

25.11.2007.

YAD EDƏCƏK

Təbrizdən keçərkən içimdən
keçən hisslər....

Şairlər diyarı-
Şəhriyar elinə,
Azərbaycan elindən
Salam olsun...salam olsun...
Bu doğma dilin-
Kəlamını yetirmişəm,
özümlə birlikdə
Anaların gül töhfələrini
götürmüşəm.
Qoy-
Bərəkət yağışı yağsın,
Bəzədiyiniz bol süfrələrə.
İstədiyiniz
niyyətlərə yetişin...
Bildiyim tək bu: -Şair
Sizləri həmişə çiçəklə
Yad edəcək...yad edəcək...

20.12.2007.

MƏNİ SEÇDİ O

2007-ci il İranda –Urmiyə 11- ci Rəzəvi Beynəlxalq Şeir Festivalında mədəniyyət işçiləri mənim şeirlərimi bəyəndilər. Onların sevgisindən yaranan şeir. Onlara Azərbaycandan sevgi dolu salamlar....

Vətəndən qıraq-
deyəsən dərdlərimizin
oxşarı vardır çəməndə.
Məndən yaxşıları vardır...
Məni çəmən bilib,
güllər içində
məni seçdi o...

Elə bir qəm ağacıyam ki-
təbiətin payızı kimi,
hey qəm tütəyi çalır.
Məni bahar bilib
məni seçdi o....

"Araz" adı ayrılıq,
heç ayrılmasın Küründən.
« Bir ovuc torpaq olaram
artar vətənin torpağı ..."
Məni səhra bilib
məni seçdi o..

Daşıdığım dərd daşı..
Gözlərdən axan Arazın göz yaşı.
Yığmağa yox yerim.
Məni bir dərya bilib
məni seçdi o....
Kimdir, nəçidir bilmirəm.
Gözlərimdən nəmi də
yazdığım şeirlər içir.
İçdiyi göz yaşlarım...
Məni şeir bilib
məni seçdi o....

Araz da donub...
Xocalım da köçünü
saldı Azərbaycanın qərbinə.
Məni can bilib
məni seçdi o...

Gün axşam oldu,
O günü də itirdim...
Amma günəşli gün bilib
məni seçdi o...

Mən sevincimi bölürəm-
qürbət qoxusunu
yaxın qoymayıb,
ətrini alıram qərib güllərin.
Yarı vətənin, yarı ellərin.
Amma, öz ellisi bilib
Məni seçdi o...

29.11.2007.
Ürmiyə.

BƏXT ÇİÇƏYİM, BƏXT GÜLÜM

Səhər açılan güllər şehində, "Bəyaz gecələr" bağında, sularda "Su Pərisində" istedadlı, gözəl müğənimiz Səyyad Əlizadənin istədiyi kimi bir mahnı.

Ləçək-ləçək açaydın,
Bəxt çiçəyim, bəxt gülüm.
Xoş ətrini saçaydın,
Bəxt çiçəyim, bəxt gülüm.

Nə saralıb -solaydın,
Nə sığalsız qalaydın,
Həmayilim olaydın,
Bəxt çiçəyim, bəxt gülüm.

Kaş , olaydı sevgilin,
Qönçəsi qızıl gülün,
Küsməyəydi bülbülün,
Bəxt çiçəyim, bəxt gülüm.

Günəş olmaz səmasız,
Ömür qəmsiz, cəfasız,
Olmayaydın vəfasız,
Bəxt çiçəyim, bəxt gülüm.

Nə məndən küs, nə inci,
Gətir mənə sevinci,
Sən bəxtimdə dürr, inci,
Bəxt çiçəyim, bəxt gülüm.

OGLUM EVƏ YAR GƏTİRİR

Yoxu vardı, varı yoxdu,
Oğlum evə yar gətirir.
Evmizin yarı yoxdu,
Oğlum evə yar gətirir.

Pöhrə, təzə bar gətirir,
Qış gedir, bahar gətirir.
Gözün aydın olsun deyin
Oğlum evə yar gətirir.

Sevda çırağı yanacaq,
Yenə könül odlanacaq,
Qışın soyuğu sınacaq,
Oğlum evə yar gətirir.

Bəxş edəcək tale mənə,
Sevinc yenə, fərəh yenə.
Olacağam nazlı nənə,

Oğlum evə yar gətirir.

Kəsilsin qubarın səsi,
Eşidilsin tarın səsi.
Gəlməyirdi yarın səsi,
Oğlum evə yar gətirir.

Fikrim açıq, sözüm aydın,
Oxuyacaq sazım aydın.
Güləmail , gözün aydın,
Oğlum evə yar gətirir.

04.12.2010.

«DUR AÇ DARVAZANI, AY EV YIYƏSI»

Şair Aslan Kəmərlinin
50 iliyinə ithaf.

Bu evin yiyəsi nə ağır yatıb,
Dur aç darvazanı, ay ev yiyəsi.
Zərbədən daşın da qulağı batıb,
Dur aç darvazanı, ay ev yiyəsi.

Görməyir bu dağlar, o dağlar səni,
Yaman arzulayır bulaqlar səni,
Neçə yar-yoldaşın soraqlar səni,
Dur aç darvazanı, ay ev yiyəsi.

Sənə həsrət qaldı o Avey dağı,
Yaşının o nikbin, o gözəl çağı.
Yaman yadırğadın qapı açmağı,
Dur aç darvazanı, ay ev yiyisi.

Əlvida söyləyib söz aləminə,
Nə yaman qapıldın öz aləminə.
Dil necə desin ki, ”döz aləminə”,
Dur aç darvazanı, ay ev yiyəsi.

Fələk haçanacan haqlı qalacaq?
Sinəmiz nə qədər dağlı qalacaq?
Qapın nə vaxtacan bağlı qalacaq?
Dur aç darvazanı, ay ev yiyəsi.

25.05.2010.

YOL AÇ, BU DÜNYADAN ÇIXIB GEDIM MƏN

Rəbbim, demədiyim sözüm qalmadı,
Yol aç, bu dünyadan çıxıb gedim mən.
Taqətim tərk oldu, dözüm qalmadı,
Yol aç, bu dünyadan çıxıb gedim mən.

Mənim qabağımı niyə kəsiblər?
Yerə marağımı niyə kəsiblər?
Göyə ayağımı niyə kəsiblər?
Yol aç, bu dünyadan çıxıb gedim mən.

Yerin iqtidarı sənin əlində,
Göyün ixtiyarı sənin əlində,
Qıfılın açarı sənin əlində,
Yol aç, bu dünyadan çıxıb gedim mən.

İztirab çəkməkdən sinəmdə dağ var,

Yerdə imtahan var, göydə sınaq var,
Yerdə mənim kimi çoxlu qonaq var,
Yol aç, bu dünyadan çıxıb gedim mən.

İlahi, dilim hey dua eyləyir,
Adını dəmbədəm səda eyləyir,
Axı Güləmail rica eyləyir,
Yol aç, bu dünyadan çıxıb gedim mən.

19.04.20

KƏNDƏ GEDƏCƏYƏM ŞƏHƏRI ATIB

Ağstafa Rayon İcra Hakimiyyətinin başçısı Məhərrəm Quluyev cənabları və Ağstafa Rayon Mədəniyyət və Turizmi şöbəsinin müdiri Gülgün Kərimov yoldaşlar məni Ağstafaya, elimə-obama görüşə çağırırlar. Onlara şeirlərimlə təşəkkürmü bildirirəm.

Əlvida, ey Bakı, əlvida sənə,
Dostlarım görüşə çağırır məni.
Ümid eləmirəm dönərəm yenə,
Dostlarım görüşə çağırır məni.

Onları görmürəm nə vaxtdan bəri,
Durub aramızda hicran çəpəri...
Yenə xatırlayıb o görüşləri,
Dostlarım görüşə çağırır məni.

O dağ yamacları unudularmı?
O bağ ağacları unudularmı?
Damcılı bulağın damcısı varmı?
Dostlarım görüşə çağırır məni.

Otları şehlimi çölün-çəmənin?
Qoynu çiçəklimi düzün- düzənin?
Varammı yadında mən Göyəzənin?
Dostlarım görüşə çağırır məni.

Bülbülü səsləyib, gülü oyadıb,
Fərəh qucaqlayıb, kədəri atıb,
Kəndə gedəcəyəm şəhəri atıb,
Dostlarım görüşə çağırır məni.

02.02.2012.

NƏ YAXŞI

Sizləri görməyə yoxdu gümanım,
Nə yaxşı sizləri görməyə gəldim.
Görüş ümidiylə sızlardı canım,
Nə yaxşı sizləri görməyə gəldim.

Əziz kəndimizdən çıxandan bəri,
Gəzdim neçə-neçə kəndi, şəhəri.
İstərəm yenə də qayıdam geri,
Nə yaxşı sizləri görməyə gəldim.

Bu bağlar ilişib qalıb yadımda,
O dağlar ilişib qalıb yadımda,
Bulaqlar ilişib qalıb yadımda,
Nə yaxşı sizləri görməyə gəldim.

Nə qədər ağrımı, acımı gördüm,
İndisə taxtımı, tacımı gördüm,
Nə yaxşı Şahinə bacımı gördüm,
Nə yaxşı sizləri görməyə gəldim.

Şirin xatirələr oyandı məndə,
Sanki cəncləşirəm sizi görəndə,
Görəsən yenə də görüş var öndə?
Nə yaxşı sizləri görməyə gəldim.

Sevdiyim yurd-yuva məni çağırdı,
Bu doğma el-oba məni çağırdı,
Şadam, Ağstafa məni çağırdı,
Nə yaxşı sizləri görməyə gəldim.

AY MƏNIM MURAD BALAM

3 yaşı münasibəti ilə

Arzum, muradım oldun,
Ay mənim Murad balam.
Muradımca doğuldun,
Ay mənim Murad balam.

Sən ki, aydan arısan,
Sən ki, sudan durusan,
Evimizin nurusan,
Ay mənim Murad balam.

Dua eyləyir nənən,
Görüm ömür boyu sən,
Muradına yetəsən,
Ay mənim Murad balam!

10.03.2011.

MƏRYƏM EVƏ XOŞ GƏLİB

Qız nəvəm Məryəmin doğum günü münasibətilə

Heç olmaram indi zar,
Məryəm evə xoş gəldi.
Çıxıb gedib intizar,
Məryəm evə xoş gəldi.

Yox oldu nisgilimiz,
Necə şadıq, necə şən.
Açdı murad gülümüz,
Bizi xoşbəxt eyləyən,
Məryəm evə xoş gəldi.

Qoşa çiyələk kimi,
Yanaqları qırmızı.
Görünür mələk kimi,
Gözəl qızımın qızı,
Məryəm evə xoş gəldi.

Qəlbimizə min sevinc,
Yaraşıq evə gəldi.
Gözəl Azərbaycana,
Bir gözəl nəvə gəldi,
Məryəm evə xoş gəldi.

Tez ol bir gözəl şeir,
Güləmail yaz ona.
"Danışan kukla"m deyir
Qardaşı İlyas ona.
Məryəm evə xoş gəldi.

QARDAŞIM ÖLDÜ

Qardaşım Həsənin vəfatı münasibətilə

Əcəl nə tez-tez gəlir,
Əziz qardaşım öldü.
Əzizlərim seyrəlir,
Əziz qardaşım öldü.

Nəslimizdə bir izdi,
Qəlbi güldən təmizdi,
Sevimliydi, əzizdi,
Əziz qardaşım öldü.

Ruh uçdu can itirdim,
Şanımdı, şan itirdim.
Arxa, həyan itirdim,
Əziz qardaşım öldü.

Ey pərişan olanlar,
Gözü yaşla dolanlar.

Ey qardaşsız qalanlar,
Əziz qardaşım öldü.

17.11.2010.

BƏXT GÜLÜ

Səsinin ahəngində axdığımız, çox hörmət etdiyim qardaşım Səyyad Əlizadə dedi: Bacım Güləmail , səni "Qəm şairi" kimi tanımaq istəmirəm, yazanda bəxt güllərinin açılmasından yaz. - Bilmirəm qələmim necə yazacaq?

Sussa da qəlbim,
Açılacaq bəxt gülü.
Qulağım eşitməsə də bu səsi,
Açacaqdır bəxt gülü.

Tuğyan edir dərd-ələmim,
Varaqda odlanır qələmim..
Külə qatıb dərdi-qəmi,
Haray çəkib yatsa da,
Açacaqdır bəxt gülü.

06.o4.2010.

ADIN VƏTƏN ÜÇÜN BİR İFTİXARDI

Böyük sənətkar, AMEA-nın müxbir üzvi, millət vəkili N.Cəfərova ithaf

Zaman öz içində, vaxt köçündədir,
Yaxşını, yamanı say-seçimdədir,
Qarabağ elləri od içindədir,
Dünya gözümüzdə hələ ki, dardır.

Milli Məclis daim məramında,
Alıb Qarabağın intiqamın da,
Şükür edib söylə bir məqamında,
Ay ellər, xalqımız nə bəxtiyardır.

Yazdığın hər əsər elmin çırağı,
Dilin tarixindən verir sorağı.
Oyadır soy- kökə böyük marağı,
Adın Vətən üçün bir iftixardır.

Dövlət yaratmışıq illər içində,
Dilimiz ən şirin dillər içində.
Elimin nə yaxşı ellər içində,
Sən kimi vüqarlı övladı vardır!

NEYÇİN AY ALLAH?

Qaçqın-köçkün ananın dilindən tökülən ahuzar

Doğma el-obada qalaydıq gərək,
Bizi köçürdülər neçin, ay Allah?
Yerimizdə şəhid olaydıq gərək,
Bizi köçürdülər neçin, ay Allah?

Sönübdür odumuz ocağımızda.
Tərki-vətən olduq bu çağımızda,
İndi yadlar gəzir torpağımızda,
Bizi köçürdülər neyçin, ay Allah?

Bağımız həsrətdən orda saraldı,
Bəsdir, qəlbimizi intizar aldı.
Bütün var-yoxumuz düşmənə qaldı,
Bizi köçürdülər neçin, ay Allah?

Gərək tabsızlara sən tab verəsən,

Əzab verənlərə əzab verəsən...
Bəlkə dilə gəlib cavab verəsən,
Bizi köçürdülər neçin, ay Allah?

Fəraq, hicran gördü qohum-qardaşım,
Neçə vətandaşım, neçə sirdaşım.
Can verdi həsrətlə həyat yoldaşım,
Bizi köçürdülər neçin, ay Allah?

26.02.2010.

SƏRBƏST ŞEİRLƏR



***

Kürdə doğulmuşam,
Arazda axıram...
Laldır Arazın axışı...
Araz –
Şəhriyarın göz yaşı...

28.11.2007.
Urmiyə.

***

Mən,
sükutun yamacında...
Sən isə acında
Məni,
Mənə döndərən şeirim,
İçimə yığ məni...

04.09.2010

***

Könül sazım
buradaca qırılıb.
Torpaq üstə...itib...
Axtar özün...
Allahım,
Bir durnanın köçünə qatılıb...
Bu yollar uzun görünməz...
Göz ver görüm -
tapıb götürməyə...
İçimdə simləyən közüm var...
Sazda sızlayan sözüm var...
Bu dərdə dözməyə dözüm var...
Səndən özgə sevgim yox,
Allahım ,
torpaq üstdən
özün götür...
Götürsən əgər,
Torpaq,
gözümdə çiçəklər...

04 . 04. 2008.

***
Güləmailin gəl dərdini sorma,
Dilin mənə yalvarır, gözün özgəyə...
Mən özümdən qaçqın,
Sən isə-
yad bağında bitərək,
gül açmısan...

04.06.2008.

ALLAHDAN XAHİŞ

Allahım, həsrətliyəm
yenə həmişəki tək.
Mən sənə minnətliyəm.
Mənim biçarə qəlbim,
Mənim yazıq ürəyim
Yüzlərlə həsrətlə dolu.
Ağlatma məni, Allah
Əgər həsrətim boyda
Göz yaşı versən mənə
Dünyanı bürüyər su.

TUTMUŞAM

Yoluma
Çıxan bu qatarı...
Küləklər
  hayana aparır görəsən?
Qoy aparsın...aparsın...sən Allah,
Lap elə
  göydəki buludlara versin...
Çölə-çəmənə,
Dağlara-daşlara
Çöksün bu qəm.
Mən ki,
üzümü göylərə tutmuşam...

2.02.2010.

EYLƏYIR

Başqa sevda bilməyir,
bu könül...
Zəhra qapısında
bir qul...
Qarşıma çıxsa
min belə aşiq,
Güləmail Muradam.
Qəlbimdə
Sənin eşqin tüyğan eyləyəcək.
Sən elə bir
hikmətli kitabsan ki,
Ariflər
varaq-varaq oxuyub
hüryan eyləyəcək...

02.11.2009.

YUMUR Kİ?!

Asılmışdım günəşin,
nur telindən.
Neynim axı, bu yaz
anasız,
  dilsiz-ağızsız-
bir körpə tutdu əlimdən.
indi bir qəm dustağıyam.
Gül bağının dərd bostanıyam.
Ürək kömək umur ki?!
Yağan yağış da yerə hopur,
 axıb məni yumur ki...

21.06.2009.

OLMADI

Yetişən-
dərdimin meyvəsi.
Toxunmayın...yuxudan oyanmayım.
Dərdim—
 könlümdə bir xana qurdu.
İlmələri
 gözümdən nəm dərdi.
Mən də bir gül-
əlində tutan olmadı...

25.06..2009.

QOCALIRAM

Qucağını mənə açan dağlar,
Sizinlə varam.
İlk laylamı ana Kürüm çalmış,
Ey qürurlu, vüqarlı dağlar...
Uşaqlıq həvəsim,
sizdə qalmış...
Qulağımdan getmir,
şaqraq bulaqların səsi.
Çaylara axan göz yaşlarım,
Bilirsiz,
Sizdən qopub gəlmişəm...
Qocalanda da
Sizin kimi qocalıram...

21.06.2010.

YOXMU?

ATV Avropa, Avropada yeddi gün proqramı, Hollandiya Azərbaycan kültür dərnəyinin təmsilçisi olan qəlbi daim Vətən həsrəti, Vətən sevgisi və bizlərlə döyünən bacım
Günər Ağrı Arpaçaya.

Türkiyə mənim gözümdən başlayır,
Dilimdən başlayır, sözümdən başlayır.
Könül yollarını açan sazımdan başlayır,
Ey Duz dağlarının lalası-,
İki millətimin sülh anası,
Sinəndə gül açıb vətən talası,
Azərbaycanımın türk balası.
Kültür dərnəyi qəmli dastan söyləyir.
Ömrə naxış salıb şərqilər söyləyir,
məni qəmli xəyallarda hər gün azdıran.
Bu dərdi qanlı göz yaşı ilə yazdıran,
Ozanlar yurdundan oxu bacım.
Yurdumun, Qarabağımın qəm-kədərindən oxu.
Türkün boz qurdundan oxu, ey,
Azərbaycanımın Ağrı Günər bacısı,
Yurdum can üstə, dərman yoxmu?
Xocalıma, Laçınıma loğman yoxmu?
Heç nərə çəkən Koroğlusu yoxmu?
Yoxmu?

16.11.2007.

QARIYACAQ

Kaş,
Qapınızı açan olaydım ...
Oyanın, ey ərənlərim ...oyanın ...
Belə getsə,
Qarabağımda-
O qədim yurdumda-
Qurd ulayacaq...
Bu yurd
həsrətdən,
evdə qalan qız kimi,
qarıyacaq...

01.20.2010

TÖKÜLÜR

Payız, könül evim-
Yarpaqlar tökülür...
Günəş də qurüb edəndə,
gözündən
qəm-qüssə,
qubar tökülür...

29.02.2008.

FIRTINA

Səndə ürək yoxkən,
ürəkdən
nə yazım axı?
Məndə olanı
şeirlər alıb...
Hər nidamda
bir sevinc.
Hər sualımda
Azərbaycan-
Yaralı
bir varlıq,
Şuşa, Qarabağ
öz tarixini başladı.
Ürəyimdən
bu ürəklə bağlı
bir tələtümdü,
bir fırtınadı...

12.12.2008.

DAĞLAR BULAĞI

Gül qoxusu qalan əldə,
Ürək yanıb kül olmuş.
Yaş kirpikdə
buz bağlamış...
Qayalardan axan çay-
göz bulaqlarım...
Mən-
dumduru dağlar bulağı.
Dağlar döşündə daşıyır
sularımı.

20.12.2008...

YUYUR MƏNİ

Külək
hayandan əsir?

Bilmirəm..
Dağlardan
uşaqlığımın mehini gətirir.
Uyudur məni.
Dağ çaylarının
gur şəlaləsi
Anamın əlləri,
yuyur məni...

11.07.2010.

AD GÜNÜN MÜBARƏK

Həmişə kövrək notlarda olan, bəzən sıxıntılı, bəzən sızıltılı, bəzən qara bulud kimi dolub yağa bilməyən çox dalğın olan, bacım şair D. Zamanlının 50-illiyi münasibəti ilə.

Görəndə səni
kədərim silinir.
Üstümə hər an
sevinc ələnir.
Görəndə səni
coşmaq-
şəninə söz qoşmaq,
Kür tək aşıb-daşmaq,
şeir yazmaq
keçir fikrimdən.
Doludur sinəm.
Gülüşünün altında
qəmin bükülür...
Üzündən, gözündən
nur tökülür.
Yaxşılıq toxumu səpmisən,
çox qayğılar çəkmisən.
Bu bahar-
məni saldı kəməndə.
Könlüm sənli nəğmələr oxudu,
ətrinə bələndi.

Axı
neçə baharın nazını,
neçə qışın ayazını
yaşamısan.
Ey Şirvanın şair qızı.
Səni qəmli görsə,
Güləmail bacın,
Od alıb alışar,
külü tökülər...
Yazına bir qış da qarışar.
İlk sevginin sevdası
hələ var başında,
Enişli-yoxuşlu
ömür yolunun
düyünü qarşında.
Taledən narazısan, dünyadan yox,
özündən küsən bacım...
Səni fərəhli görəndə
könlüm elə sevinir,
duyğularım dillənir,
Bu gün sənin ad günün..
Açılsın qəm düyünün..
Sənin doğma bacın tək,
çağır gəlim, ay bacım,
deyim ad günün mübarək!

9.05.2010.

DURNA QATARINDA

Neynim axı,
dünya mənə ögey, yad...
Köksümdə acı fəryad...
Özümü danladım,
Fələyi qınadım...
Dərd-qəm yuxusunda
Sinəmdə dərd avazı...
Görünməz xəyyallarım
durna qatarında...

18.18.2010.

YETİM QALACAQ

Qışdır... tənhadır mənim kimi.
Neynəsin, axı bu dağlar?
Üstünü küləklər qamçılayan,
yağış döyəcləyən,
qar bürüyən,
başı bəlalı, sinəsi dağlı
vuqarlı dağlar-
görüşə çağırıb məni.
Özündən ağır dərdləri var.
Qar altında üşüməyi,
öz-özünü döyməyi var.
Günəş altından-
hərdən boylanıb,
gözündən gülməyi var.
Gizli –gizli.

Topraq altından püskürər,
görünməz
odu –alovu...
Bu fani dünyada
olmasam əgər,
boş qalmaz ki, yerim.
Amma...
Mənsiz qalan
dədlərim,
yetim qalacaq...

23.08.2009

****

Şair bacım Fərqanə
Mehdiyeva ilə söhbət zamanı

Hələ yox, Güləmail,
“Çəkdiklərim mənə bəsdi.”
“Payızın yanında gözlə məni.”
Onda özümə gələrəm.
Çünki payız küləklərindən
Başqa heç kim,
heç nə məni
oyada bilməz.
bilməz.

14.07.2010.

BİRLƏŞİR

Yağış tozlu,
Səma tutqun,
Yol palçıq.
Yarpaqlarda
yağışın son damlaları,
Külək vurub yerə tökür,
Nəhayət,
torpaqla
birləşir...

4.11.2008

YAŞAYIM

Ey gözə çəkilən
milləri,
Ürəyə düşən eşqi,
görə bilməyən!
Hansısa bir yaşamda.
Bərabərlik görürsənsə,
De-
mən də yaşayım...

01.02.2008

***
Könül
məclis qurdu.
dərd çəkməklə,
günəşi ötürüb,
özünə
qayıdacaqsanmı?

10.10..2008

***
Açılmayan
gənclik eşqini
yaşamadım...
Dəli könülsə yaşadı
onu pozan, fələklə...

25.08.2010

GÖLLƏRI

"Yusif peyğəmbər" filmini izləyərkən.

Misirdə Tibis şəhəri,
100 darvazası,
10 qapısı,
Nil çayının qolları
Yusif peyğəmbərin gölləri...

25.08..2010

ÖZÜNƏ

Qadın şairlərdən biri mənə o qədər yalan vədlər verdi ki, axırda danışdığı yalana özü inandı.

Yalan
Bir ox kimi,
batır gözümə.
Aldığın nəfəs yalan...yalan...
Yalandan yalan doğur...
İnanmayıb
Sözün düzünə,
İnanır yalanın
Özünə.

27.10.2010.

SƏHƏR AÇILİR

Dan yeri qızarır,
Nar kimi.
Yenə səhər açılır…
Ey qaranlıq,
Nə durmusan qarşımda,

Yarı sevməyən yar kimi?
Məni saxlaya bilməzsən.
Mən səhərəm,
Günəşlə yarışıram.
Aləmə nur saçıram.
Oyanır quşlar.
Səhərin gəlişindən

Müjdə gətirir Qaranquşlar.
Vaxt ötür.
Zülmət itir.
Quşlar oxuyur,
Çəmənlər al-əlvan
Xalı toxuyur.
Şükür Allaha…şükür Allaha….
Günəş
Öz nuruna bələnib gəlir.
Qoy…qoy gəlsin
Qızıldan taxt yox,
Quruca bəxt… bəxt gətirsin,
Ey ulu Tanrım!

16.09.2010.

SÜRGÜNDƏ…

Ürəyim yüklüdür
qəm şələsilə...
Bölmə əməliyyatı
fırlanır başımda.
Dərdlərimi bölən yox.
Dərdlərimlə dərdləşirəm.
Nə "Kərəmi", nə "Divani" havası
ovudur məni.
Tək "Cəngi ", "Misri" havası
dözümlüyə, mətinliyə
çağırır məni.
Qəm köçü qəlbimdən gedir.
Göz yaşlarım
ürəkdə gizlənir.
Sanki
dərdlərim sürgündə...

04.09.2009.

EŞQ

Yazıq Günəbaxan,
Günəşə aşiq.
Aşiqlik
içini qaraltdı,
Üzünü saraltdı...
Budur eşq...

18.10.2008.

YOXMU ƏLAC?

Tanrının dərgahındayam,
dua eyləyirəm.
Yox könüldə sevgi payı,
yox əlacı...
Könül bir ölü göl,
yox sevgi payı.
Elə hey dərd üyüdür,
bu dünyada qazancı
Elə ehtiyac...
Yoxmu əlac?

01.01.2009

ŞƏHİD ATASI

Oğul qapısının
Açarı itmiş...
Atanın dərdi danışır.
Dərmanı dərd yazan fələk,
Ürək qan içində,
ürək ağlayır,
Göz yaşı
duz təki yandırır—yaxır.
Ruhu canımda yara bağlayır .
Deyirəm, nə olaydı
Durub gələydi,
Gülə-gülə qapıdan girəydi.
Axan göz yaşını
əlləri ilə siləydi.
Axı qurğuşun yüklü
bir qataram.
Ah-uf,
qussə- kədər hər an
içimdə böyüyür...
Neynim ki, dərd yükünü
qoymağa yer axtarıram.
Tapa bilmirəm...
Uca dağlarına
sığına bilmirəm, vətən.
Çəninə , dumanına
bürünürəm, Vətən.
Günəşində isinə bilməyirəm.
Üşüyürəm... üşüyürəm...
Gedirəm... gedirəm...

DÜNYA

Ay işığında,
Gecə qaranlığında.
Ulduzlar sırasında,
Yerlə göy arasında,
Yaşar... yaşar...
Bir eşq adası-
Dünya...

30.09.2009

MƏNİ AXTAR

Sənsiz-
Yazıram.
Qollarını...uzat...
Hazıram
Öz dünyama

Aparım səni.
Axı, mən səni yazıram.
Qoy könül quşları
Ağlamasınlar.
Arpa çayında
Saranı yox,
Məni axtar!

4.10.2008

SƏBİR

Ana-
Həyat, Torpaq, Vətən!
Yaşayan-yaradan...
Ey varlıqları xəlq edən
Ulu xaliq!
Dilsiz- ağızsız körpələri,
Anasız qoyma...qoyma...
Peşiman... peşiman...
Özümü qınayır,
Sözümü döyürəm,
Hönkürtü,
Hıçqırıqlar içimdə çabalayır.
Püskürür, yeraltı vulkan kimi.
Yeri didən kimi
Ürəyimi didib, dağıdır,
Saçımı yolur,
Amandır, vurma... vurma...
Yox anası
Ovuda, kiridə,
Səhər-axşam,
Göz yaşları ilə
Axtarır o körpə,
Duyur...
Nəsə çatmır...
...Nəsə yox..
Biri var, biri yox,
Nə?

Boşluq ... boşluq...
Axı boşluq dolmayır...
Var...
Yox...
Nə?
Nə?
...

30.09.2010

GÖRMƏDİYİN YUXU

İçində
Zülmət gecənə,
Bir işıq göndərirəm.
Sevmədiyin ürək ...
Görmədiyin yuxu...

15.01 .2008

SÜLH

İllər də,
Öz geyimini dəyişəcək...
Hər tərəf gül açacaq
Uşaqlar...
Müharibə--
Bombaların
çuxuru olmasa,
Sülh...

04.05 .2008

BİR ÖMÜR KİMİ

Söykənmişdim dağa,
Hardan biləydim
Təpə imiş, düz imiş.
Boş bir qazan-
İçi də çox dayaz imiş.
Ayazlı-şaxtalı,
Qış sazağında
əridi...əridi
Bir ömür kimi.

11.10.2010.

OLSUN

Düşüncələrimdə Türkiyə üçün yazdığım şeir.

Nə yerdəyəm, nə göydə,
qanadlı quşam.
Havalanıb uçmuşam
Yerlə göy arasında.
Ulduzlar sırasında...
Türkiyədəyəm xəyalən,

Qardaş-bacılar arasında.
“Sizlərə salam olsun”—deyirəm.
Salam olsun...
Türkiyəm, Azərbaycanım,
biri atam, biri anam
olsun...olsun...

21.10.2010.

TOYDU

Şairə bacım
Fəridə Ləman deyir:
“Şeirlərin elə
həsrət gətirir.”
Gözlə, şairim,
Yazmadığım şeirlərim
gəlin duvağında…
Toydu….

04.05.2010.

***

Mən ölü dəniz-
Hönkürtüm sularında
boğulmuş.
Sən, canlı dəniz-
Susdurulmuş...
Kim ölü, kim canlı,
əcəba?!

02.02.2010.

***
Könlün bu çağında,
Səni xoş gördük.
Ey quduz küləklər
Könül tarlasında,
Bir şey qalmayıb-
Nə aparacaqsan?

22.10..2010

XƏYALIN ÖLSÜN

Sənə çatmayan əllərim
"sevirəm" söyləyir,
nə mənası?
Onsuz ürəyim-ürəyində,
Gözüm- gözündə..
Gözlərim sənə yol çəkir.
Ürəyim sənin xəyalın.
Demirəm ki
Sevirsən, ya yox...
Qoy içindəki,
Xəyalın ölsün...

01.02..2010.

SƏNƏ YAĞMAQ

Fikirlərdə
İlişib qalmışam...
Mən küləkdən əsdim ki,
Yerdə yox,
Orada,
Göydə...
Sevgini kiprikdən asmışam...
Kaş, gözlərin
Dənizə götürə məni.
Son arzum-
Sənə yağmaq...

8.10..2008.

PERİKMİŞƏM

Bu İnsan-
Maskalı bir gənə,
qan sorur,
Guya unudulur dərd
Onlara

məcburi gülməkdən,
perikmişəm...

8.11.2008

YAĞMAYACAĞAM...

Mən bir həsrət yağışı,
Yağa-yağa sənə gəldim.
Həsrətin mənimlə yaşıd,
Bunu gözümdən soruş...
Gülə-gülə dedim.
Ayrılmağa gəldim,
Bir daha ... bir daha...
Sənə yağmayacağam...

4.11.2010.

DƏRD CƏKMƏKLƏ

Borçalı mahalını xatırlayarkən.

Mən yarı Qazax,
Yarı Qaraçöp elindənəm.
Yarı yerəm, yarı göyəm.
Məndə var-
Hər bir dərd yarası.
Qalmışam kəndlə-şəhər arası.
Mən bütöv həsrətli,
Azərbaycanın yarısı kimi.
Araz- ayrılıq adında.
Şeytan, mələk donunda.
Gün-günəşi ötürür,
Gecəyə qayıdır...
Könül məclisi qurur
dərd çəkməklə...

11.12.2008

BƏXT GÜLÜ

Tüğyan edir dərd, ələmim...
Varağı odlandıran qələmim...
Külə qarışıb qəmim,
Haray çəkib yatsa da,
Açacaq bəxt gülüm.
Dərd tumurcuğu...
Çiçək açmasa da,
Açacaq bəxt gülü...

02.11.2010.

OLARDIM

"Annemə məkyub yazdım...
Nə alacaq,nə oxuyacaq"..
Doç.Dr.Tamilia Abbashanlıya

Mələklərin əlləri
Pay verdi bu alimə.
Türkiyə elim, şəhəri-bəllidi,
Özü bizim ellidi.
Allah
Özü yaxşı biləni seçdi.
Ruziyə şükür edib
Azı böləni seçdi.
Bitməz ağrı-acılardan.
başım açılsaydı
Mən də alim olardım.
Bu dünyanın sirlər qapısını-
Açan olardım.
Yazılan məktubları
Açıb, oxuyan olardım...

2009.

MƏNƏMMİ?

Bilmirəm
bu nə hal...
Aləmə car çəkir,
Könül intizar...
Hara qoyulub axı
bu könül açarı?
Hara qaçıb
Sarayın igidi.
Qapısı var-açılmır,
Pas atıb kilidi.
Bilmirəm nə səbəbdən,
Doğması ögey olub.
Əsir əlimdə qələm.
Yazır:

Qürrələnmə a zalım,
bu dünyaya tək yük,
mənəmmi?

20.11.2009.

DOĞULMAQ ÜÇÜN

Bir axşam üstü
Evdən dənizə baxıram,
Saat 17-30.
Qüruba gedən
Günəş
Dəniz üstə...
Su yığır
Ovcuna...
Təzədən doğulmaq üçün.

09.12.2010.

KİŞİ

17 dekabr,
Metro qatarında,
Bir vaqonda oturmuşdum.
Kipriklərim mürgü çalırdı,
Gözümü aldadırdım.
Bu an,
Mənə kimsə toxundu.
Gözümü açdım,
Hamilə qadın.
Qalxdım ayağa-yer verim,
Sən demə, gördüyüm
Kişi...

MƏNİ

Qəmin ayağını bağlayın.
Gülə-gülə vurdu aslanları.
Gülə-gülə əridi beyin qatları,
Sovqatı salamdan olan şair.
Günəşdən asılıb üzü aşağı...
Sər-sərvətin, bağlıdı əl- ayağın,
Bir içim sudur ömrü,
Haqq-ədaləti yazmaq işi.
Şairi belə göndərib tanrısı.
Azaldıqda haqq-ədalət,
Çoxaldı kədərim-qəmim,
Özüm kədər-dərd əlində
Bir sevinc idim.
Azaldıqca get-gedə vəfa, etibar.
O gündən çevrilib bir kədər oldum.
Vəfasızlıq odlara atdı məni,
Cana-qana işləyib...
Ürəkdən ağlatdı.

12.12.2007.

KÜT GEDƏR

Bu altmışımda-
Yar yanında,
Yarsız-həsrətlə gəlmişəm.
Gecə-gündüz Yaradan qəlbimdə
Ulduzlu, aylı, günəşlə gəlmişəm.
Həsrətlə dərz bağlamışam,
Qələmimlə qoşa ağlamışam.
Göydən-mən,
Mələklərlə gəlmişəm.
Ey yaradanım,
əsirgəmə mərhəmətini,
olmasa səndən eşq urvam
küt gedər-
kündəm.

09.01..2010

OXŞAYIR QƏLBİMİZİ

İlk dəfə Stalin mükafatı laureatı, ordenli bəstəkar, Azər.SSR Ali Sovetinin deputatı, Azr.SSR EA-nın həqiqi üzvü, SSR-i xalq artisti, Azərbaycan Opera sənətinin banisi Üzeyir Hacıbəyov Əbdülhüseyin oğlunun 23 noyabrda vəfat günü münabasibətilə.

Ah çırpınan ürək de, nədən susdun,
Neçin yaranmışdın, bəs nədən susdun?
Zəfərlər yaşadın bu cahanda sən.
Sənlə fəxr edən bu şanlı vətən.
Bu gün vidalaşdı səninlə, bir də-
Görüş olacaqmı yerdə, ya göydə?
Bu dalğın xəyalım yenə də səndən,
Ayrılmaq istəmir görüş yerindən.
Qayıdır üzünə həsrətlə baxır.
Sanki gözlərimdən bir alov çaxır,
Sən, ey azğın ölüm, ta əzəl gündən
Qurtulan olmuşmu sənin əlindən?
Fəqət ölməmişdir böyük sənətkar,
Bu könül sazımda onun simi var.

***

Taledən küsüb
İnciyəndə,
Yazmadığım şeirlər,
içimdə bir fırtına
Qapımı döyür...

03.12.2009.

ÜŞÜYÜR...

Sarmaşıqdır sarılıb mənə,
Bir xəzan üstə
vicdan xəstəsiyəm...
Göynəyim
Sığmır dərd otağıma.
Dərdi dərd üstə gətirmə, Allahım.
Xəzəllər qucağında
könlümdü üşüyür...
Bir həsrətin bucağında
sevgimdi üşüyür...
Yasa batmış arzular,
diləklər...

Gözü nəmli sevgimin
Ötür ayları, illəri, üşüyür.
Üşüyür...

29.09.2008.

AĞLAMA...

Çox seriyallı "Gümüş" adlı telefilmə baxarkən.

Birinin ümidi
alovlanıb yanar.
O birininki zülmətə gedən
günəş kimi
batar.
Atalar məsəli var:
"Kişilərin üzü dönüncə, yəhərləri dönsün".
Duyğular, hisslər içində qalan könül,
Hıçqırıq olub,
Yollarda qalan qulun kimi
Kişnər...kişnər...

16.01.2008.

GÖYƏ ÇƏKMİŞ

Böyük qardaşım Aloşun ölümündən sonra anam yaşamaq istəmədi, öz istəyi ilə ölüm yatağına uzandı. Axı mən yuxuda görmüşdüm, oğlumu məndən əvvəl öldürürlər. Rəbbimin Məkkəs Mədinəsinə, Ziyarətgahlarına, Quranına, yerinə -göyünə, axar çaylarına, uçan quşlarına, zirvəli dağlarına, gülünə-çiçəyinə, torpağına- daşına yalvarmışdım, al mənim canımı, amma oğluma dəymə. İndi ki, oğlum məndən əvvəl dünyasını dəyişdi, daha mən yaşamaq istəmirəm. Anamla qardaşımın arası 5 gün çəkdi. Qardaşımın ölüm gününün beşinci günü anamı da torpağa verdik. Allah ölənlərimizə rəhmət etsin...Amin!

Məni tənha qoyub,
Gedirsən, ana!
Sənin arxanca
Yastığıma göz yaşı yağar,
Ömrümə ehtiyac daşı.
Axar göz yaşlarım
Daşqın çay kimi-
Deyirsən,
Bu, nə göz yaşı,
Bu nə vay-şöyün,
Məgər ölmüşəm ki?
Ölümümdən xəbərim var,
Mən özüm istəmişəm ki!
Sənsizəm, ana!
Gömgöy ömrümü
kimsə görməyir.
Səni axtarıram...

Gah soluma baxıram,
gah da sağıma,
Yox yerdə anam!
Mələk anamı
ğöylər mələyi göyə çəkmiş.

02-03.12.2004

QAZAXDA DOĞULUB,
BAKIDA YAŞAYAN ŞAİR

Xalq şairi Nəriman Həsənzadənin
80 iliyi münasibəti ilə.

Bu, nə sızıltı, bu, nə inilti,
Bu, nə dəhşət, bu nə hənirtı.
Yovşanı cibində-höyüş göz yaşları.
Dili nəğmə dolu, bayatılı, laylalı,
Ana Kürün suyu kimi axır göz yaşları.
Üz tutur şairlər şairi Barat Vüsala:
Bu, necə olur? Bu, necə olur, Barat!?
Qazaxda doğulub, şəhərdə yaşayıram...
Şairin ünü ərşə çəkilir sanki,
Gah qələndər təki özünü dağlayıb,
sözünü döyür...
Bu torpağın sirli hikməti var,
Anadil quşudur-
Qarayazı meşəsində
dəmbədəm oxuyur.
Poylu beşiyində
laylası çalınan,
Kür qırağında
Ağstafa çayı sahilində böyüyən,
Körpəcə Nəriman, əziz şairimiz.
Yenə gülləri dər.
Ah-fəğanlı, gözü yaşlı
şeirlərinə qatıb,
Qazax mahalına,

Poylu beşiyinə
...göndər...göndər.
Yenə
Nabat ana
təndir başında,
yuxuda gördüyü
şair balasının
laylasını çalsın...

18.02.2011

DOSTLUQ–KÖRPÜSÜ

Misir Ərəb Respublikasının Bakıdakı Səfirliyinin Mədəniyyət Mərkəzinin mədəniyət üzrə attaşesi, MMM-sədri Pro.Dr. Mustafa Moavad Abdül-Tavab Abu-Ziedə

Axar çaylardan, Nil çayına
Körpü salanlar...
Keçilməz dağlardan,
Yol salanlar...
Ey ucadan uca yamaclar,
Meşə yolu, yaşıl ağaclar,
Dünyanın-
Hər ölkəsindən gələn,
Dostlara qollarını açan,
Azərbaycanım ana olsun.
Bu dostluğu quranlara
Salam olsun...
Ey qurub, yaradanlar...
Hərəniz bir bənna,
Kərpic-kərpic hörüb,
Bu bəndləri qurub yaradanlar!
Azərbaycan ölkəsi,
dostluq diyarı.
Azərbaycana qardaş deyən,
Misirlə xoşbəxt, bəxtiyar olsun.
Ölkəmiz müstəqill, azad yaşar,
Dostlara qol açıb birgə yaşar,
Yanar dağlarında. Yanar alov coşar,

Buludlar köçür,
Şimşəklər çaxır, Dostluq Körpüsünə
Dünya günəş kimi,
İşıq saçar, nur ələr.
Nə qədər ki, Azərbaycan var,
Nə qədər ki, Misir var,
Sınmaz bu körpülər,
Azərbaycanla Misir arasında
Sədaqətlər azalmaz.
Məhəbbətlər tükənməz.
Səmimidir sözlərim,
Əbədidir məhəbbətim.

26.10.2011.

HOPURAM

(Poemadan parça)

Çarmıxa çəkilib,
Göyə mıxlanmışam.
Bostan təki uralanmışam.
Anasız körpələrdi yüküm...
Bunu necə saxlayım, necə büküm?
Ağırlığımdan göy də yorulub,
Ayağımın altı boş,
Buludlardı dayağım...
Özüm də bilmədən
Torpağa hopuram.

09.04.2010.

DÜYMƏ AXTARIR

Bu qarlı yollar, qubarlı yollar,
Qatır məni qışa qalan
son yarpaqlara,
Payız
Öz yollarından keçirir məni də.
Özü qəm köynəyində...
Son nəfəsini bağışlayıb mənə
yağışın səsilə, küləklərin rəqsiylə...
Oxuyur yarpaqların pıçıltısıyla-
“yaxan düymələ-düymələ...”
Öz yaxasından xəbəri yox...
Payızdır bu...
Yar bağında
düymə axtarır...

26.11.2009.

HAYKULAR

Anasız körpə...
İç-içə gecələri...
Necə əritsin?

4.03.2009.

Ağlayan körpəyə
Nənələr yox,
Analar layla çalsın.

10.03.2009.

Gəlirəm..
Su gedir,
səndə axıb gələrəm...

04.06.2008.

Ulduzları saydım,
Adları da saydım.
Saya bilmədim ki,
Dərdləri...dərdləri...

20.01.2009.

Gözlərimi-
atmışam yollara
bəlkə...
bir gün güləcək.

***

Gözümü yola atdım,
Yol çəkir...
bəlkə qayıtdı bir gün...

7.06.2011.

Zamandan asılmışam.
İstini soyuğa dəyişən
Küləklər kimi...

08.03.2009.

Göy
üzünü dənizə salmış
yumaq üçün...

27.10.2009.

Yatıram...
Əlini mənə vurma,
Yuxularımı öldürür...

27.02.2009.

Azadlıq, xoşbəxtlik
gəzən şair!
Şeir yazan vaxt
Xoşbəxt deyilsənmi?

2009.

Açıqdı yolum...
Giley-güzar tökürsən...
Donan ayağım...

17.12.2010.

Ah, çarəsizlik-
O qaranlıq bir
şaxtaya bənzəyir...

11.04.2008.

Bu gün
Müəllimlər günü...
Şagirdlərin
Açılır hicran düyünü.

Ürəyimdə ağır daş,
Yolları gəzirəm.
Ülvi hisslər-
Qıfıllı sandıq...
Ah, o səslər...

21.04.2008.

Dolu döyər dərəsini,
Yağış döyər bərəsini.
Həvəs vardı gül dərəsi,
Dağlarım mənim.

20.03.2010.

Könül sazım-
Almalı bulağın şırıltısı,
Qara suyun yazı avazı,
Ana Kürümün laylası...

28.02. 2010

Budaqlarda-
Yanan çiçəklər- buludlar...
Payız ağlamaz.

20.10.2008

Xəyallarımdı,
beynimin meşəsində
azıb itmiş...

20.08.2008

İnsanlardı qocalan...

Ey qocalmayan kədər,
Neçə yaşın var?

29.04.2008

Qısqanclıq—
Sevən üçün imtahan,
Dərd, qüssə, kədər...

24.02.2008

İtirilmiş,
məhəbbət daşıyıram...
Ruhları qovuşacaq...

05.05.2010

Anam əzrayıl əlində,
Kömək edə bilmədim...
Əlacım göz yaşlarım...

05.11.2010.

Kaş yaxama,
Taxa biləydim
Boynubükük bənövşəni.

05.11..2010

Ürəyimdən,
Axan qan rəngi.
Nar ağacı, nar çiçəyi.

01.01.2010

Yollarımda
Olan qaranlığı,
Kaş, süpürə biləydim...

01.01.2010

Lal olan bu şam...
Ürəkdir yanan hər gecə,
Dili yox ki.

VƏ YA

Yandırır dilini
Dilsiz yanan bu şam,
Kədəri çox ki!..
Ürəkdir yanan hər gecə
Dili yox ki,..

01.01.2009.

Dərdin
ağacından asılmışam...
Qəbrim tapılmasın deyə.

28.11.2007

Əllərin beşik...
San ki ana qucağı-
O eşq ocağı...

10.10.2007

Ümidimi, arzumu
gözlərində götürdü,
bilmədi...

04.09.2008

Əlini uzat
telimi sığallasın.
Payız
gözümə çöküb.

11.04.2010

Sən hər əldə
Siqaret tək yansan da.
Həyat yolun mənim.

15.04.2008

İlhamı yağış...
Yox ağaclarda yarpaq...
Bu da bir payız.

19.04.2008

Ləpələr dərdlərim...
Saya bilmirəm...
Alnımın qırışında mürgüləyirlər.

26.02. 2008.

Əlimin halına acı...
İstisi ciblərimin
Cırıqlarından tökülmuş...

01.01.2009

Əllərimi donduran...
Şaxta...
Arxanca,
baxışlarımı səpirəm....

18.09.2008.

Ana, tellərim
Əlin üçün darıxıb.
Sığalı yoxdu.

10.07.2008.

Gözümdə üzən
Bu balıqlar
Yumdum hamısı boğuldu...

15.07.2008.

Yolları yeyən-
Ayaqlarım.
Eşqdi...
Yazığım gəlir...

15.07.2008

Ey inildəyən torpaq,
Hönkürtüsüz bir ünvanam...
Adım sənsən...

18.10.2008

Sözü içimə yox,
Gecə gözdən tökürəm...
Hələlik bitdi...

29.09.2008

Dənizə baxıram-
Su üzündə Gəmi...
Çatmıram-
Su aparır Gəmini.

30.09.2008.

Görəsən kimin qollarıdır
Buludları sıxıb,
Gözündən tökür....

18.10.2008

Sevənləri
Su ayırır,
Torpaq qovuşdurur...

4.1.2008

Gündüzü günəş,
Gecəni qaranlıq
Ayaqlar, Allah...

11.10.08.2008.

Həsrət körpüsündən,
uçan quşlar...
Tarixi araşdırır...

11.10.2009

Bürkünü
küləklər aparır..
Qoymayın...qoymayın...qoymayın...

03.04.2009.

Mən bir bənövşə tək
boynubükük.
Sevinci alıb... xəyalım
gözünə büküb.

02.04.2009.

Məndən üz döndərən-
Bir karsan ki,
Səsimi eşitməzsən.

10.10.2008.

Ciyərlərimdə...
Sən bir siqar tüstüsü-
Yara yaratmış...

10.11.2008.

Mənə vermədiyin
Sevgi payını,
Özgəyə pay etdin..

10.11.2008.

Gözlərimdə,
Gecənin tabutu
İşığa yol gedirəm...

30.05.2009.

Kəmərli şair Zöhrənin deyimləri.

Mərdimazarla yol getmə.
Xasiyyəti belədir.
Mərdi əzər keçər,
Qozbeli qəbir düzəldər.

15.05.2008.

Bacımda olsa dilərəm,
Özümdə olsa yalaram.

***

Çağırha- çağır oldu,
Yollarım yağır oldu,
Adıma qoyun kəsildi,
Yediyim bağır oldu.

***

Xalq şairimiz Abdulla Şaiqin
130 illiyi münasibəti ilə.

UŞAQ ŞEIRLƏRI

QARĞANIN NAĞILI
TƏMSİL

Evdə oturmuşdu
Bir bacı, bir qardaş.
Pəncərədən baxan bacı
Deyir:- Bax,
Ağaca qonub qarğa,
ətrafa səs salıb zarıldayır,
baş-beyin aparı r...
Qızcığaz tıxayıb qulağını,

Qarğanın susmağını gözləyir.
Qardaş deyir:-sənin gözəlliyin,
Qarğanı məst eyləyir.
Bacı pərişan olub inildəyir,
Yox, yox, deyib geri çəkilir.
Axı mən çox sevirəm,
köksünün altı sarı köynəyi.
Musiqi var canında,
sazı var qanında.
Heç də oturub özünü öymür o.
Qardaş deyir:- Nə olsun
Nə görmüsən ki, axı sən bu quşda?
Nə görkəmi var, nə də ki,
Nə də ki, qarğa kimi uzun ömrü.
Bacı deyir :
Kaş yenə
Bülbüllər oxuyaydı.

12.11.2009.

Necə xoşbəxt oluram,
Körpələr uyuyanda.
Sanki ruhum dincəlir,
Yoluma nur çilənir,
Körpələr uyuyanda.

Nəvə "baldan şirin » di,
Çəkilib gül-çiçəkdən,
Şirin-şəkər düşmür dildən
Göydən gəlib nur deyirlər.

30.08.2000

NƏVƏLƏRİM

Fikrimdədir səhər-axşam
Nəvələrim, nəvələrim.
Biri İlkin, biri İlham
Nəvələrim, nəvələrim.

Kəmaləmin izi sizdə,
Yeganəmin sözü sizdə,
Kənanımın gözü sizdə,
Nəvələrim, nəvələrim

Həyatınız qoy dinc olsun,
Muradınız sevinc olsun,
Qəlbiniz fərəhlə dolsun,
Nəvələrim, nəvələrim.

Vətənə, elə mailəm,
Çəmənə, gülə mailəm,
Nənəniz Güləmailəm,
Nəvələrim, nəvələrim.

2005

NOGUL BALAM İLYASIM

Gəldi bahar, yaz ayım,
Noğul balam İlyasım.
Şirin-şəkər bal payım,
Noğul balam İlyasım.

Həm arzum, həm muradım,
Həm sazım, həm bayatım,
Bəm səsim, xoş avazım,
Noğul balam İlyasım.

Vüqarım, uca dağım.
Meyvəli bağçam, bağım.
Qönçəli, gül budağım,
Noğul balam İlyasım.

Alıb qəmi, qəhəri,
Unutmuşam kədəri.
Gəl dilimin əzbəri,
Noğul balam İlyasım.

06.09.2008

Uşaq gözlərini yumur.
-Nənə, sən məni görürsən?
-Hə, dərdin alım, görürəm.
Çünki sən mənim ürəyim.

Ağlayan-
yatan körpələrə,
Qoy nənələr, yox...yox...
Analar layla çalsın...

24.12.2009

Göy guruldayır,
Şimşək çaxır,
Qorxudan.
Günəşin üzü açılır,
rənglər göyə çıxır.
Yaranır,
göy qurşağı.

12.04.2009

NAĞIL

Çox sevdim, çox...
Bənzətmərəm hər gün
Çıxan günəşi, günəşə.
gözəlliyi gözəlliyə.
Aya-
gecədəki o tilsimə
baxmağa qorxum var,
bilmirəm.
Bu, nə duyğusuzluq,
bu nə korluq, bu, nə tilsim...
Əlimdən tut, Tanrım,
Çətinə salma məni.
Qorxuram,
Yollarda yıxılam,
Torpağında qalam.
Çatmayam vüsalına...
Fikir sürətilə,
Deyir : irəli-irəli !
Anamın səsi gəlir
qeybdən, Xıdır Nəbidən :
"dayanma, durma,
Yatma, oyan..."
Bu səsdə, sevinc qarışıq
bir həyəcan, bir çağırış.
Sən eşq...sən işıq...
İstərəm yer altından,
püskürən
bir od-alov olaydın
...kaş...

29.10.2009

TISBAĞANIN NAĞILI

(Təmsil)

Tısbağa,
Dərdə düşüb,
deyinir öz -özünə,
Axı payız gəlib,
Ağaclar tökür öz yükün.
Dəyişir libasını.
Fikir, xəyal içində,
Tısbağa gözlərin yaşın tökür...
Ah-küf içində,
Göl qırağında,
Dərd içində,
Su üzündə özünə baxır.
Ah, bu çanağım,
Bir də belimdəki yüküm...

Kaş sizləri töküb,
Özümü yox,
Libasımı dəyişə biləydim.

30.10.2009

QARININ NAĞILI

Yaşlı bir qarı vardı,
Toyuq-cücə saxlardı.
Say bilməzdi,
Cücəni cüt-cüt sayardı.
Qonşu bir gün
Oğurlayır birini.
Qarını od götürür,
Qarğış-lənət yağdırır,
Bir cücənin itməyi,
Onu yaman yandırır.
Qonşu fikrə gedərək,
Bir yol tapır.
Qarı bilməsin deyə,
Cüt-cüt oğurlayır cücələri.
Hər dəfə qarı sayır,
Düz gəlir sayı,
Sonda belə sayla,
Bir cüt cücə qalır .

12.03.2008

XOCALIDA OLAN HADİSƏLƏRLƏ BAĞLI

Bahara uzanan,
yollar kəsildi.
...Üşüdüm...
Mürgülü hisslər,
yuxulu qaldı

Bu, nə qaça-qaç, Allah?
Nənnilər budaqda qaldı,
Gülüşlər dodaqda qaldı,
Göz yaşları yanaqda qaldı,
layla çala bilmədim, bilmədim...

26.02.1992.

Murad balam,
gözəl yazdı ki,
Dildə şirin sözdü ki,
Şirin- şəkər diliylə,
Bir yaşını özü yazdı ki.

10.03.2009.

Qırmızı, yaşıl, göy,
Üçrəngli bayrağımız.
Azərbaycanın zəfəri,
Bu bayrağı əlində
özü ilə gəzdirən
Bax, Murad balamdı.

10.03.2010.

MƏHƏMMƏDİM

Qəlbimizə nur saçacaq,
Məhəmmədim.
Çiçək kimi gül açacaq,
Məhəmmədim.

Bir balaca boyu ilə,
Toy-bayramdı atasına.
Doymaq olmaz sözlərindən,
Şirin baldı anasına
Məhəmmədim.

Atasına canım deyir,
Dostum və həyanım deyir,
Anasını çox-çox sevir,
Məhəmmədim.

Səni sevir Güləmail,

Vurulubdu camalına.
Gözlərinə olub mail,
Söz olammaz kamalına
Məhəmmədim

.

GƏLMİŞƏM

Səhərin açılmasına,
dözə bilməyib,
Dan ulduzuna qoşulub,
Gəlmişəm, ana!
Qoxuyub gül nəfəsini,
Gülşəni heyran gəlmişəm.
Şövqünlə güc alıb,
Quşların səsindən,
Öncə gəlmişəm, ana!
Elə bilirsən ki,təkcə
Gəlmişəm?
Günəşin açılmamış telinə,
Güllərin şehinə bələnib,
Gəlmişəm, ana!

06.09.2006.

MURADIN DEYİMLƏRİ

Möcüzə yaratdı Yaradan,
Dünyaya gəldi Muradım.
Gündüzün günəş nurundan,
Baharın al yanağından,
Tur dağının yelindən,
Nağılların bağından,
Dünyaya gəldi Muradım.
Bilmirəm necə deyim, necə yazım,
Solubdur dağlar lalası,
Qalıb bir Murad balası.
Yoxdur nəvəmin anası,
Tapılmır dərdin çarası.
Yaz təbiətə salmış xalısını,
Açmış yamaclarda çiçəklər, güllər.
Payız yağmurlu yağış havasında,
Nə tez solmuş açan güllər. çiçəklər?!

MURADIN DEYİMLƏRİ

Qırmızı, yaşıl, göy,
Üç rəngli bayrağımız.
Azərbaycanın zəfəri,
Ucalarda bayrağımız.

Murad deyir:-
“Nənələr evdən getsin,
Ev analarındı.
Nənələr
qab yuya bilmir...”

08.02.2010.

***
Əlimdə
üç rəngli bayraq.
Rəngləri,
qırmızı, göy, yaşıl.
Qırmızı-qandır deyir,
göy-göyün üzü deyir,
yaşıl-ağacdır deyir,
Üçü də Anam
Vətəndir deyir.

31.05.2011.

***

Bilgisayar qarşısında
bir dolça su.
Murad "suyu ver",
içim deyir.
Nənə yox deyir, axı,
Su bilgisayarındı.
Nənə, onun ki, ağzı yoxdur,
suyu necə içəcək?

11.04.2011.

***

Körpə quzum,
Ağlayıb, sızlama.
Get paynı ye,
Payın ağlayır.
"Baxım hələm,
Görüm payım ağlayır?
Baxdım ağlamır,
Hələ ölməyib..."

03.07.2010.

***

Dəniz sahili,
Yağış yağır.
Adamlar çətirdə,
Murad düşünür.
Nənə
"Dənizdəki su islanmır?
Dənizin çətiri yoxmu?"

10.08.2011.

VƏ YA

Murad nənəsi ilə,
Dəniz sahilində.
Şıdırğı yağış başlayır,
Adamlar islanmasın deyə.
Başlarına çətir tuturlar,
Bunu görən Murad soruşur.
Axı dənizin çətiri hanı?
Bəs su islanmır?

10.08.2011

***

Yağışı sevmirəm,
Göy guruldayır.
Yağır yağış,
Küçələri isladır.
Olur palçıq.

28.09.2011

***

Göydən tökülür,
Küçələri isladır.
Murad deyir:
yağışdır.

28.09.2011

***

Nənə nağıl danışır,
"Şəngülüm, Şüngülüm, Məngülüm"
Aç qapını mən gəlim.
"Anamın -
Açarı var çantasında,
Çağırmasın balaların,
Açsın özü qapını."

30.09.2010.

***

Şamlıqda nənəsilə gəzən Murad,
Ağacdan yerə tökülən,
qozaları görüb deyir:
" Nənə, bunlar qumbaradır,
əlni vurma ,birdən partlayar,
Ağaclar yanar".

31.110.2011

***

Yenə dəniz sahili,
Murad dənizə baxır.
Sevincək deyir:-
"Su axır, su axır,
dalğalar sahili döyür, nənə,
amma, su yerə tökülmür."
Muradın səsini eşidib sular
Tez dillənib deyirlər:-
Biz göylərdən tökülürük...

17.08.2011

***

Çəməndə oynayır
İki qardaş.
Məşq edib,
Güləşirlər,
Şirin- şirin oynayarkən,
Sözləri çəp gəlir.
Biri o birsinə
söyləyir:- « vuraram səni,
göydən aslı qalarsan..."

22.09.2006

***

Hər səhər nənəsilə ,
bağçaya gedən Murad.
qarşılaşır

itlə, pişiklə.
Düşünüb Murad
belə söyləyir:-
“bunların
evləri yollardı?”

05.05.2010

***
Murad bayrağa baxıb,
Kədərlə belə deyir:-
“Qarabağ qara bayraq,
Hələlik yad əldədir...

26.02.2011

***
Qar yağır,
Murad sevinir.
Qar topu oynayacam,
ay can, ay can.
Nənə yox deyir,
hava şaxtadır,
əllərin üşüyər.
Yox, ay nən, əllərim
qara dəyən kimi
qar əriyəcək.
Əllərim
üşüməyəcək...

07.11.2011

***
Nənə ilə Murad,
Avtobusla gəzintiyə gedirlərmiş.
Nənə deyir:
bir tərəfdən tut, yıxılarsan.
Murad deyir:
Yox nənə,
Yıxılmağa yer yoxdu.

25.11.2011

***
Uzun müddət
Quşları düşünən
Murad deyir:-
Quşların evləri yox, nənə!
Onların yuvaları var,
Quşlar,təkcə yatanda
Yuvalarında yatırlar...

28.11.2011

***
Nənəsi ilə gəzintidən qayıdan Murad,
Yol boyu ağaclara baxıb düşünüb, soruşur:

Nənə bu ağacların yarpaqları hanı?
Qışdır deyə nənə dillənir:
-Onları şaxta vurub yarpaqların töküb,
Ağaclar da qış yuxusuna gedib
yatırlar...
Murad qışqırıb deyir: yox-yox.
Ağaclar yatmayıblar, nənə,
Onlar torpağın
üstündə otrublar.

1.12.2011

***

Nənə deyir gecədi, gecdi
Muradbalam,
Gəl sənə nağıl söyləyim,
Səndə yat
Yox. Nənə nağıl danışma.
Mən nağılların içində necə yatım?

10.07.2011

***

Tənbəl deyil Murad,
çoxdan oyanıb.
Əl- üzünü yuyub,
Çörəyini də yeyib,
Göylərə baxır.
Gecə toranlığında,
Ulduzları sayır...
Qardaşına baxıb
Özünü öyür,
Səhəri gözləyir.

08.03. 2010

Tənbəl

Bu qara yarasa,
Qaranlıq axtarır.
Gündüzlər
Yatagında qalır
Durmasın deyə.

24. 05. 2005

Dovşan ili

Xəyallar qanadında,
Körpələr evində
Mələklər taxtında,
Qış sorağında,
Uşaqlar yanında,
Dovşan ilində
Bi rdə o illərə baxdım...
baxdım...

***

Heyvanların gözəli,
Körpə uşaq kimi.
Oğrun-oğrun gəzər,
Əsrləri bəzər,
dovşan ili...

01.01.2011.

***

Layla çalmaqdan
Heç usanmayan
Anaların gözündə
Gülür körpəsi.

2010.

***

Anaların dürrü, incisi,
Arzuların birincisi,
Ömrün gecəsi—gündüzü,
Ailənin günəşi-ayı,
Körpə balalarım mənim.

28.07.200.

KÖRPƏ BALAM...

Doqquz aylıqdı balam,
Addım atıb, ayaq açır,
Bir, iki, üç...
Gündə bir buğda boyu,
Boy atır, böyüyür,
Mənim körpə balam,
Hələ tək ana sözü deyir-
Şirin dil açır...
Öz ana dilində,
Mənim Murad balam.
Bu el, bu torpaq, bu vətən
bu səma,
Göy, yer də sənindir.
Öz ana vətənindir.
Dil – sərvətin olsun!
Ana- vətənin olsun!
El- məhəbbətin olsun!
Muradına yet,
Mənim körpə balam,

Murad balam.

12.11.2008

QOCALMAYIR

Beyin meşəmdə...
Hələ də uşaqlıq nağılı.
İki uşaq oynayır...
Qocalmayır...

30.11.2010.

.

POEMALAR



… TEYMURUN SƏSİ

Xalqımızın ləyaqətli oğlu,
gözəl insan, akademik
Teymur Bünyadova həsr edirəm.

Qəmsiz gülüş axtarırdım,
Bir ovuc yaşla qayıtdım.
Çəkisiz daş axtarırdım,
Bir kisə daşla qayıtdım.
Budur, qarşımda kitablar,
İçində laylalar, bayatılar…
Oxuduqca gözüm ağlar,
Sinəmdəki dərdli ürək,
Hey çırpınar, hey atılar.

Avey dağı Teymurun,
Məkkəsi, Mədinəsi.
Qibləgahı, səcdəgahı.
Neynəsin-
O, dağlar sonası,
O gözəl nazlı mələk…
Sinəsinə igidlər, mərdlər dağı çəkilən,
Aveydən damla-damla süzülüb gələn,
"Damcılı bulaq"?
Göylərə baş çəkən,
Göyəzən dağıdır-
tək sirri-sirdaşı.
Müdam bu dağlar altında
əhdə vəfalı, düz ilqarlı
Bir gözəl ağlar….
Duyğulanıb, düşündükcə
Bu həzin qələmim,
Yenə bulaq tək çağlar,
Yenə hönkürüb ağlar.
İndiki halımda
Sanki çarmıxa çəkilib
Göyə mıxlanmışam.
Bostan təki uralanmışam,
Anasız körpələrdi yüküm…
Bilmirəm-
bunu necə saxlayım, necə büküm…
Ağırlığım qurğuşun ağırlığı…
Ağırlığımdan yorulub göy, daralıb göy…
Ayağımın altı boş
Buludlardı dayağım…
xəyaldan ayılıram,
dayağım yox olur tamam,
Özüm də bilmədən
Torpağa hopuram.

Ey, elimin şan-şöhrətli oğlu,
Qeyrət, ləyaqət simvolu,
Ömür kitabını
Varaqladıqca,
yığdım gözlərimə.
Qazaxın,
Şıxlı köyündən dünyaya pərvazlanan,
Mehdinin, İsmayıl Şıxlının-
Mərdliyin, kişiliyin düz yolunu,
Vidadidən, Vaqifdən ,
Vurğundan, Nərimandan
Nizamidən, Baratdan
gələn söz yolunu.

Teymur Qağanın öz yolu,
təpələri, düzləri,
cığırları, izləri
Dan üzütək necə nurlu,
Necə işıqlıdır üzü bu yolun!
Burda yol boyu sıralanan,
Bağrı xallı laləyə nəğmə qoşmaq,
Həvəsimdən aşıb-daşmaq,
Dönüb bəyaz göyərçinə,
Qanadlanıb uçmaq, uçmaq,
keçdi sazlanan könlümdən.
Ədalətin sazında alışan,
Bir " Yanıq Kərəmi " keçdi.
"Havalı " könlümdən…
Və beləcə, havalı-havalı
Avey dağının ətəyindən,
Göylərə baş çəkən
Göyəzən dağından,
"Damcılı" bulağın
Xəstələrə şəfa verən,
Göz yaşlarından yazmaq,
illərlə ana həsrətindən
Könlü qırıq gəzən,
Bəxtinə, qismətinə
anasızlıq ağrısından sızlamaq düşən,
Hicranın gözündən,
Durna lələyindən
Ana məktubları asılan,
anasız qalan körpəyə,
Çata bilməyən məktublar.
Yaralı könlünü ovutmaq üçün,
Öz—özünə layla çalan,
Həzin--həzin nəğmə deyən,
Anasız bir körpənin dərdini duymaq istədim.
…Neynəyim, anasız körpələrin
sızlaması, göynəməsidi
Ürəyimi qanadan.
Avey dağından da ağır yüküm…

Dastanını gecələr
laylalarında yazan analar.
Anasızlar-
“Ana “ kəlməslndən
hürküb sızlar…
Ana məhəbbətinə
tamarzı qalmış
Körpələrin səsi,
için-için göynər,
yanar, inildər,
içə-içə gecələri…
Anasız körpələr…
qərib gecələr qucağında
“Anasızam,
laylam hanı?”- deyən körpələr…

Ey sazlı-havalı ozanlar,
Tarixin yaddaşına
Bayatılar yazanlar,
nağıl söyləyənlər,
qoşma deyənlər,
Hər an könül ovudub,
ruhu oxşayan
Anaların
bayatıdır laylası.
Dilində dastanı,əfsanəsi.
Ana əvəzsiz bir xilqət…
Kol dibində boynu bükük,
əyri bitən bənövşə tək
yollara boylanır-
bir uşaq
köks ötürərək…
Düşünüb deyir:-
Ölməyir analar,
qapısız, pəncərəsiz,
havasız, çıraqsız otaqda
uyuyurlar.

Neynim axı mən?
Gecələr Ana Kürümü
gözümə çəkirəm.
Ana,
sənsizliyə yağmaq üçün.
Neynim axı mən?
Anasız bir dünya gördüm.
Əərşə çatırdı naləsi,
elə orman gördüm,
can verirdi pöhrəsi…
Elə bir bağ gördüm
Solmuşdu çiçəkləri.
Şaxta onu vurmuşdu ,

Donmuşdu läçäkläri.

“Anam birdi, vätän täk ” deyän,
Sözünü kövräk deyän,
“Xan çinar kölgäsindä”
dincälän,
Äsrin tarixini -
yaddaşlara yazan.
Qälämi ilä elm däryasında
Lövbär salan,
Teymur adlı bu körpä.
qışın oğlan çağında,
balaca bir komada
dünyaya gäldi -
1928-ci ilin
20 yanvar günü.
Bu gün,
Şıxlı adlı obada
Fatma ana ilä Ämiraslan atanın
İsti ocağında sevincä,
färähä döndü.
Qarayazı meşäsindä,
Anadil quşu kimi dindi,
Sevinci Kürä döndü,
Öyündü Fatma ana…
Hayıf ki, çox az oldu,
tez dä söndü bu sevinc,
Gözdän endi bu gülüş…

Vərəqlədim kitabı,
Fikrim –xəyalım çaşdı…
Qopdu tufan, fırtına,
Söndürdü bu ocağı.
Vüsalın sinəsinə,
Çəkildi hicran dağı…
Ana!
Xəyal məni apardı,
Fikrim dolaşdı göyü,
dağı-daşı ruh kimi…
Köksümə çalın – çarpaz,
dağ çəkildi dağ üstə.
Özümü körpə sandım,
qələmim də hönkürüb,
Ağladı varaq üstə.
Ey ana ətri axtaran,
İndən belə
Adın səslənməz ananın dilində,
Əlin isinməz ana əlində.
Xəyalım oldu bir karvan köçü,
Qəm gözlərimdə yuva saldı,
Dərdim ürəkdə dil açdı…
Ana köçdü dünyadan,
Qaldı balası yetim…

Vurnuxa-vurnuxa ana axtaran,
Analı dünyasını əcəl aparan,
Bağından vüsal gülünü
hicran qoparan,

Göylərində ildırım çaxan,
buludların
ahından ayılıb qalxan
Teymurun-
Ürəkləri yandırıb-yaxan,
Göz yaşları sel olub,
Yanağından süzülən,
O yaşları da silən
Bir körpəcə əl olub-
anadan üzülən əl…
Anasızlığın bu fəryadın,
bu səsin
De , kim, kim eşidər?..

Sonra "37"-
Repressiya deyilən il…
Gəldi qasırğasıyla,
böhtanı, yalanıyla...
Sanki indi
Fağır-fağır, sarala-sarala
bükür boynunu o illər,
bir günahkar kimi…
O illərdə tökülən
bu qan axıb
durulurmu?
Qurtarırmı?
Yox, qurumur bu qanlar.
Qışqırır, fışqırır, qurumur amma…
Qışqırır o illərin qurumayan
göz yaşı da.

Qışqırır günahsız -
naməlum qəbirlərin,
qoyulmayan baş daşları.
Qışqırır naməlum
qəbirlərdə yatanların,
Ağrı gölündə üzən
Bacısı, qardaşı da…

37- ci il…
Hansı tində can verdi,
Müşfiqin səsi?
Hansı yerdə can Verdi,
Cavidin dustaq xatirəsi?
Görən hansı yerdə
can verdi
bu anasız körpənin
Əmiraslan atası?
37-ci il…
Sözlərimizə bir qorxu,
bir kədər çökmüşdü.
Gözlərimiz -
sıxıntıdan nəm çəkmişdi.
37-ci il…
Azərbaycan xalqının
Dərddən yarıyan bəxtinə,
gecələrin "bəlkə"si düşdü,
Qara qüvvələrin kölgəsi düşdü.
Günlərini saya-saya,
dəstə-dəstə, qatar-qatqr,
səs-səsə verdilər...
37-lər...
"Bəlkə"-ləri yada saldıqca
Beynim uğuldayır,
qulaqlarıma
O qan -qadalı,
hədəli , bədbəxt illərin,
Gecə qaranlığında
Qorxulu, sıxıntılı ürəklərdən qopan-
Qışqırığı gəlir :
Tutublar!
Tutdular!
Tutacaqlar!..
Beynimdə uğultu,
Qulaqlarımda o səs-səda.
İndi də 37-i rəqəmindən
diksinib üşənirəm.
O vaxtdan Sibirdə--
qərib gecələr qoynunda,
qəriblər yarası sızlar…
O nakam qəriblərin
məktublara yazılmış,
könül misrası sızlar…

“Axtarın, tapın məni,
Bu yerlərdən aparın .
Vətənə, torpağa tapşırın məni.”

Dörd açılaraq…
səni gəzər gözlərim-
Hey yollara baxar,
Sənin həsrətin-
donmuş kədərim…
Ata,
Yenə səni istədi könlüm,
Göynədim için—için.
Dönüb qara buluda
ələndim ələçim--ələçim…
Fikir karvanı çəkdi,
sonsuz səhraya məni.
Söyləmədim heç kimə,
Anamın ruhu gəldi,
Dadıma, köməyimə.
Həmdəm oldu könlümə,
Məlhəm oldu dərdimə…
Yetimliyin.
fəryadını, harayını… yazdım.
Xəyalım azdı,
Şıxlıda,
Gəzdi cığır—cığır,
Aveyin zirvəsini.
Döndüm körpə budaqdan,
Küləyin qamçısıyla,
Tökülən yarpaqlara.
Atam ,anam iki qara daş-
Biri şəkilli, biri şəkilsiz…
Kaş dil açıb dinəydi bu daş,
Qardaş…
Amma yol gedir insane.
“Həyat” adlı aləmin
qarasında,
ağında-
ağ günlər də yer verir ,
insana qucağında…
Bəxti yar oldu ona,
Bağladı Zivər adlı,
Bir gözəl ilə ilqar.
Həmdəm oldu yara , yar…
O, gündən,
Eşqə düşən bu ürəkdə
bir şam yandı,
sevgi şamı…
Kainat yenidən işıqlandı.
Tanrı ona bəxş etdi
Şirin, Qaratel adlı,
Bir cüt gözəl övladı.

Oxuduqca Teymur Qağanın
Həyat tarixçəsini
xəyal apardı məni.
Xəyal dediyin də bir xəzinədir,
odur dünyanın ən böyük,
gözə görünməyən qüsursuz əsəri.
O baxmadı çətinliyə,
Oxudu çox həvəslə.
Bitirdi də məktəbi
Qızıl medalla.
Dözdü o, yetimliyin
Bütün əzablarına.
Görüb –götürdüyünü,
Yazdı kitablarına.
Yazdı sətirbəsətir
Həyatın mənasını…
Çıraq təki nur saçdı,
Zirvəylə durdu qoşa.
Haqqa tapındığından,
Müdam çəkildi başa.
Oldu zəka mənbəyi.
Güc aldı, qüvvət aldı,
babaların haqqından.
Özü döndü günəşə,
bahara döndü qışı.
Üzə güldü ömrünün,
saflıq olan naxışı.

Bu torpağın meşəsi çox,
Meşəsindən keçəni çox.
Amma Teymur qağa kimi
Bu meşəyə
gələni yox, gedəni yox…
O, seyr etdi ulu yurdun,
Açıq, mavi səmasını.
Parladı ulduz kimi,
Nuru düşdü ellərə,
adı isə dillərə.
Bildi qədirbilənin,
Qiymətini, qədrini.
Tanrı ona yar oldu,
Kök üstündə kökləndi.
Üstün saydı ayaq üstə ölməyi,
Diz çöküb yaşamaqdan.
Qəlbində yüz dastanı,
Yüz maraqlı əsəri,
Taleyin hökmü ilə,
Döndü sönməz məşələ.
Xoş arzu qanadında,
Yaşadı əməliylə.
“Sən Kür, mən Kür “ deyərək
Yazdı həsrət saçan sonsuz yanğını.

“Yaman dünya” deyərək
Gördü yanan dünyanı.
Vətənin bayrağını,
Sinəsinə basaraq,
Yazdı vətən göynəyini.

Sözdən çələng bağladı,
Ana Kür tək çağladı.
“Anam” deyib ağladı,
“Atam” deyib , qürurla,
Başını dik saxladı.

1990-cı ilin
20 Yanvar günü,
küləkli Bakımızın,
min arzulu, niyyətli,
diləkli Bakımızın
bəla aldı üstünü,
Cəfa aldı üstünü.
Gecə köynəyini geyməmiş,
Bakımın qapısını,
qasırğalı-fırtınalı küləklər döydü.
O gün tankların üstünə,
Əli yalın gedənlərin,
“Ya azadlıq, ya ölüm “deyənlərin,
Özlərini şəhid edənlərin,
Ürəklər oldu məzarı.
O gün zarıyırdı gecə…
O qanlı-qadalı 20 Yanvar günü,
Gözləri ağlayırdı qızıl güllərin,
Ürəyi yanırdı qərənfillərin.
Yolu təngnəfəs olub…
20 Yanvar günü,
Bizim Teymur qağanın
Sevinc günü, şad günüydü-
Ad günüydü.
Sovet əsgərlərinin,
Bir sovet ölkəsində,
Evləri, küçələri,
qana boyadığı gün…
20 Yanvar günü.
qanlı bir gecə…
Ün ərşə dayandı, qan töküldü,
Haqq, ədalət içimizdə boğulub,
şəhid edildi.
Torpağımızı bölə- bölə vadiləşdik,
Şəhidlərimiz çoxaldıqca,
Ölüm belə adiləşdi…
Dağlar susan kimi,
Bu lal dünya susdu.
Görən kim açacaq,
tutulan gözümüzü?
Oğurladılar,

Ocağımızdan közümüzü,
Bu zalım dünya hey susdu.
O gün-
20 Yanvar günü,
Bol- bol sızıltıdan
inləyirdi o gecə.
İnləyirdi torpağımız, daşımız,
qan qoxuyurdu hər şey.
Qan idi gözümüzdə yaşımız.
Çaşqın xəyallar içində,
Fikir çölündə itdim…
Azdım beyin meşəmdə.
Neynim axı?
Çətin oldu Qağa üçün,
Ağır oldu Qağa üçün,
O gün-
20 Yanvar günü
bir daha Qağamızın,
doğum günü -
ad günü yox,
qəm-kədər günü oldu.
Yazdı türk dünyasının,
Qorxmaz - yenilməzliyini,
Yazdı əzəli yurdun,
Koroğlusunun, Tomrisinin,
Cavanşirinin, Babəkinin
igidliyini.
Aldı "Şöhrət ordeni", "Qızıl qələm",
Oldu,
"Əməkdar Elm Xadimi".
Hər sönən ocağın,
bir közü qalar…
Adı dillərdə gəzən,
Qazax mahalının,
İlk millət vəkili Teymur Bünyadov.
Oldu elin, obanın,
Fəxri, həm iftixarı.
Oldu həm ümid yeri,
Oldu həm inam yeri ,
Oldu sərvəti, varı…
Tale yenə oynadı,
Onunla təzə oyun.
Ayırdı ömür yoldaşından,
Sevimli Zivərindən.
Nurundan, Ülkərindən.
Gəmiqaya üstündə bitən,
tənha çinar,
Qorxur,
Kürəyinə düşə yükü dünyanın.
Qala arasında iki dünyanın.
Qorxur-- Zivərsiz,
Həyatı ölümdən betər yaşaya,

Nə yaşayırsa, hədər yaşaya…
Deyər ki, könül, gözlərimə yaş daşı,
Mən olaram sevgimizin baş daşı.
Bax , beləcə, Zivəri
Qoydu onu baş—başa.
Qara həsrətlə qoşa.
Bu eşqin harayından,
Ürəkdə qəm- qəhər , ağlaram.
Göydə qara buludam,
Könlümə dərd bağlaram.
İndi bildim,
Tək canı indi bildim.
Məni tək qoyub getdi,
Hicranı indi bildim.

Amma yenə sönmədi,
Könlündə el-obaya,
Yurduna, torpağına
Olan sönməz məhəbbət.
Mehribanlıq, şəfəqqət.
Onun əyilməz başı,
Zirvə kimi dik oldu.

Yazıldı "Həsrət körpüsü",
"Gəl obaları dolanaq",
"Ay üzlüm, ay bənizlim"…
…Bir gün
" Sənli xatirələri,
sənli dünyamı,
yumulu gözlərimdə,
-gecələrin səhərə,
açılan qorxusunda,
aparasıyam mən ,"-dedi.

Taleyin hökmü ilə
Ucaldıqca zirvəyə,
Tarixin ağ üzünə ,
Düşdü " Teymur" imzası.
Etnoqrafiya elminin,
Türk Azərbaycanındakı
ilk akademiki.
Teymur Əmiraslan oğlu,
Oldu türk dünyasının
Bilik, elm xəzinəsi.
Dünyaya səda saldı,
Teymurun səsi…
İti bir qılınca bənzədi sözü,
Zirvədə ay kimi parladı özü.
Özü bir dünya-
bir vətən oldu.
Gördüm yolu açıq…
Fatma ananın ruhu,

Hər açılan səhər,
İşıq seliylə
Doldurur dolçanı.
Uğurlu yollar diləyib,
Atır arxanca…

20.01.2011

УМУД OLSUN!

Gürcüstana səfər təəssüratım

Qərib bir payız axşamı…
Aylı bir gecə.
Ömür karvanını aparan qatar
yol üstə.
Ay ulduzlar sorağında.
Fikirdən xəyallar doğur.
O, illər qəlbimdə dolanır-
cığırlar dağa dolanan kimi.
kövrək duyğular axıb tökülür,
Ağacdan yarpaqlar sovrulan kimi.
Bu gün-
mürgülü xatirələrin oyanan günü.
O günlərin xatirələri ovudur məni.
Bu qərib axşamda,
bu qərib gecədə,
Sanki, çiçəklər, güllər açacaq!
Yandır ürəyini, Güləmail,
Açan güllər solmasın,
qurusa da ölməyən
Solmaz çiçəklər kimi.
Bu qərib axşamda,
Gecəyarı…
Qarayazı…
Baxıram yollara sarı.
Göylər yerdən yuxu yığır.
Bir az nəfəsini dərir dəli Kür də…
Deyəsən, Kür qırağının sonası mürgüdə.
Bu Qarayazının meşəsi mürgüdə,
Xəyallar çəkir məni oylaqlara,
Ceyranlar oylağı : talası mürgüdə,
Ceyranı yuxuda…
Hanı sübhün ətirli, şehli nəfəsi.
Kəs gecələrin ömrünü,
Ya Rəbbim, gündüzə qat,
Oyansın…Günəş oyansın…
Xoş müjdələr gətirsin… Desin:
“Açılır səhər, coşub-çağlayır həyat”.
Mən…mən bu gecəni

yuxuda görmək istəmirəm…
Tələsirəm , yaman tələsirəm…
“Tələsmə “ deyir Fəridə Ləman da.
Axı mən görüşə tələsirəm…
Xəyallarım
Yarımürgülü, yarıoyanıq
Mürgülü xəyallarım,
saf-saf döyünür-
Gənclik yanımdan ötüb oyünür.
Oyanan xəyalların əlindən tutub,
görüşə tələsirəm.
Gülarə Munis isə deyir: “ Tələs.”
Bu görüş, şairlə, vətənlə görüş.
Hələ səhər açılmamış,
Quşlar nəğməsin oxumamış-
Eldən-elə tələsirəm, yaman tələsirəm…
Əldə qələm-
səhər-axşam,
hər açılan sabah,
sözdən-sözə tələsirəm.
Bilən yox bu tələşımı,
Duyan yox
bu halımı…
Biri “tələs”, biri “tələsmə” deyir.
Mən tələsirəm…
Şair!
Sən dillən şeirinlə, sözünlə…
Qoy könüllərdə bayram olsun,
Bu sənətə həmişə ehtiram olsun…
Uşaqlıq illəri arxada qalıb,
Saçlarıma ələnib dən.
Toqquşur fikirlər, xəyyallar,
Günlər, aylar, illər ötür,
Cavanlığım candan köçür,
Ürək köks ötürüb yazıqlaşır.
Aşıq bacim, Nargilə balam,
Ustadlar ustadı Aslan lələm,
bir “Cəngi” çal,
çaram olsun.
O , illərin xatirələri,
Könüldə çiçək açıb ətirlənmiş,
Dağların ətri ilə sətirlənmiş…
Sorağımı alarsız əsən küləklərdən,

Xatirə dil açıb əhval soruşar.
Bu elin Qarayazı dağlarının,
hər bulağı bir əfsanə danışır-
Bulaq suyu-
dağların sevgi yaşı…

Elim-günüm, obam olan
Qarayazım…
Ey mənim əzizlərim,
Nə danışım?!
Nə söyləyim?!
Sizləri görüb bir az xoşəhvallı,
bir az xəyallıyam…
Məndə bu mahalın gəlliniyəm.
Sizdən bir ovuc sevgi götürdüm,
Sizdən biri olmaq üçün.
Ürəyinizə dolub, torpağınıza hopdum
Sizinlə birgə olmaq üçün.
Həmişə sizinləyəm
ey əzizlərim…
Qarayazılılarım…
Gürcüstan,
Qardabani şəhərinin,
3 saylı ictimai məktəb,
bu elim, bilik ocağında.
Bu müqəddəs müəllimlər günündə
sizləri xoş gördük-
Müəllim sehirli bir aləm,
Körpələrin dili, elin yurdun dili.
Gənclərin gələcəyə işıqlı yolu.
Bu yolu işıqlandıran
müəllimlərə salam olsun…
Neynim axı?!
Bu dünyanın əlləri qoynunda-
qalana baxmır,
Torpağı cadar-cadar,
talana baxmır.
Dərdin əlində
ələm-yesir !
Kama çatmır mərdin əli.
Namərdsə öz işində--
Didərgin eyləyir eli-günü.
Ovula-ovula ürəyim dinir,

Qanana dərs verir-
qanmazın biri.
Qalmışam fikirlərimlə baş-başa.
Yaşadığım ömrün silirəm göz yaşını.
Nə yazım nə söyləyim?
Bu yaşam içində-
ömür itirirəm.
Amma bu 60 ildə,
Nələri itirdim, nələri qazandım…
Bu gün dost sözləri
könlümü aldı…

Sanki bir uşaq idim, əlimdə çanta.
O məktəb illərim…
Oynayırdım, dərədə, təpədə…
Gul-çiçək dərən anlarım…
Dağda , düzdə, çöldə, yamacda.
Yadıma düşdü dağlar…
O atalı-analı əziz illər,
Bulaqların zümzüməsi,
saz havası,
Çiçəklərindən çələng hörüb
telimə taxdığım.
dağlar lalası…
Unutdum dünyanın oyununu.
Ürəklərə dolmuş milyonlarla nisgili, dərdi,
Unuda bilmədim talan olmuş,
yurd yerlərini…
Vətən dərdini!.
Günləri, ayları, illəri itirirəm,
Sökülürəm ilmə-ilmə,
əriyirəm gilə-gilə.
Səməndər quşu tək,
yanıram bilə-bilə.
Bilin dərdimi-
Azadlıq bayrağı ilə,
dərdlərimin ayağıyla,
həsrətimin gözüylə gəlmişəm.
Sis, duman, çən içində,
Zəfər sorağıyla gəlmişəm.
Siz unutmayın,
Ey mənim əzizlərim,
Qarayazılılarım…

Müəllim yoldaşlarım-
Firdovsi, Bəhrəm, Fərhad,
Səyavuş, Gülşə, Fatma, Sevda…
Şair dostlarım-
Rafiq Hümbət, Afiq Muxtaroğlu,
Musa qardaşım.
Torpağın fəryadını,
Vətənin dağını,
Qarabağ harayını…

Ürəyin hay-harayını,
axşam-səhər
yazır qələmim.
Bu ahuzardan
talan olmuş qəlbim.
Şəhid olmuş neçə mərdim.
Qələm silahım olmuş,
Şeirim yarağım olmuş.
Bu yanğı, bu harayla gəlmişəm.
Gün o gün olsun nisgilimiz,
həsrət dolu ahuzarımız-
Ümid olsun.

05.10.2011.

Ana quşu bu nəğməni oxuyur:

Mən özüm-özümə yol gedəsiyəm...

Təbiət, çöl-çəmən xalı toxuyur

Nədir içimdəki o haray, o səs?...

Mən özüm-özümə yol gedəsiyəm ..

ÖZGƏ NECƏ OLMALISAN?!

Tez-tez "Mən niyə belə oldum"
...deyən şair Güləmail Murada

Sən gülsən, Güləmailsən,
Şeirə, sənətə mailsən,
Şairsən, sözə qailsən,
Özgə necə olmalısan?!

Qəlbin bulaq, gözün ayna,
Sözü dadlı, duzlu sona,
Qayğıkeş, mehriban ana,
Özgə necə olmalısan?!

Ürəyində var təəssüfün,
Qoy hər zaman gülsün üzün.
Yaşayıb görəsən yüzün,
Özgə necə olmalısan?!

Biclikdən çıxmayıb başın,
Qələm, dəftərdi sirdaşın.
Məmməd kimi yar, yoldaşın,
Özgə necə olmalısan?!

Elin yığılıb başına,
Dostların gəlib yaşına,
Gül düzürük saçlarına,
Özgə necə olmalısan?!

Fəridə Ləman.
19.10.2007.

GÜLƏMAİLƏ

İlk kitabının çapdan
çıxması münasibəti ilə.

Yolda qoyub gözünü,
Göstərmirdi özünü,
Qoşma, təcnis düzümü,
Axır ki, açdı çiçək,
İlk kitabın mübarək !

Bu "övladın " ayağı,
Sayalı olsun deyək,
Sayı birdə qalmasın,
Onun, on beşin görək,
İlk kitabın mübarək!

Şeir deyil, nəğmədir,
Bu yazılan doğmadır,
Özündən toxunmadır,

Sətirlər incə, kövrək,
İlk kitabın mübarək!

Qəlb sinəmdə döyündü,
Sənin ilə öyündü,
Yaxın uzaq söyündü,
Şeriylə deyər ürək,
İlk kitabın mübarək!

Ay Qazağın balası,
El dərdinə yanası,
Məhəmmədin sonası,
Alış, eşqdə yan görək,
İlk kitabın mübarək!

Məst edib Əzizəni,
Sözdən inci düzəni.
Lalə, reyhan, süsəni,
Gətirin, çələng hörək,
İlk kitabın mübarək!
İlk kitabın mübarək!

Əzizə Ağahüseyin qızı
04.09.2002

DOLAN SƏNSƏN

Gül çöhrəli, gül ətirli,
Şeirləri xoş ətirli,
Dost yanında çox xətirli
Olan sənsən, Güləmail.

Qəlbin yaraşır adına,
Doğma gəlirsən adama,
Dost adlanan eşq badəmə,
Dolan sənsən, Güləmail.

Mehribanlıq, səmimiyyət,
Sənin üçün xoş bir adət.
Qədəmlərində səadət,
Gələn sənsən, Güləmail.

Çatasan ömrün yüzünə,
Sevinc ələnsin gözünə,
Məhəbbətlə dost üzünə,
Gülən sənsən, Güləmail.

Xuraman
19.10.2007

GÜLƏMAYİL

Vətən adlı məlalına qurbanam,
El dərdi bağrında köz , Güləmayıl.
Mən də sənin kimi könlü viranam,
Darıxma açılar yaz , Güləmail.

Saf dünya qurubsan öz aləmində,
Üzürsən qəvvas tək söz aləmində.
Ozan sənətində, saz aləmində,
Həmişə ilqarı düz, Güləmail.

Butayam , sevmirəm dünya varını,
Yaradan çin etsin arzularını,
Qoruyub saxlasın balalarını,
Arzum budur yaşa yüz, Güləmail.

Səadət Buta

2.07.2011.

MÜBARƏK

Şairə Güləmail Muradın 55 yaşına

Səndəki şirinlik elimdən gəlir,
Ətrin dağımdakı gülümdən gəlir,
Təkcə şeir yazmaq əlimdən gəlir,
Ad günün mübarək, ay Güləmail!

Gözəlliyin verilibdir Tanrıdan,
Üzünə açılsın xoş xəbərli dan,
Bilirəm çox sevir səni Yaradan,
Ad günün mübarək, ay Güləmail!

Vardır ürəyində min arzu, dilək,
Çatıynan murada, a nazlı mələk.
Səni xoşbəxt etsin yaradan fələk,
Ad günün mübarək, ay Güləmail!

Fəridə deyir ki, güvən dostlara,
Dostlara güvənən heç düşməz dara.
Güləmail hara, qocalıq hara,
Ad günün mübarək, ay Güləmail!

Fəridə Ləman

GEDƏCƏK

Şair Güləmail xanımın "Arabaçı" şerindən doğan təəssüratlar.

Dərdə dəymə, məni apar,
Dərd də mənimlə gedəcək.
Bu dünyadan məni qopar,
Mərd də mənimlə gedəcək.

İzə dəymə , tozu apar,
Başdaşıma yazı apar,
Rəng seçəndə bozu apar,
Qurd da mənimlə gedəcək.

Şeytanlara qarışmayan,
"Haralısan?!" soruşmayan,
Düşmənlərlə barışmayan,
Şərt də mənimlə gedəcək.

Təskinlik məni toxdadır,
Yenə ümidim bəxtədir.
Bu dünya bir nərdtaxdadır,
Nərd də mənimlə gedəcək.

Dünya evi çox talanmış,
Haqq-ədalət noxtalanmış.
Zor-güc ilə "saxtalanmış",
Pərt də mənimlə gedəcək.

Bu dünyadan, Dilbər, itsəm,
Torpağımda, əgər bitsəm,
Qələm deyir: "hara getsəm
Yurd da mənimlə gedəcək".

Dilbər Şahbuz
04.05.2006.

DƏRDİN ALIM

Güləmail xanımın "Sənli sənsiz» kitabını oxuyarkən məndə yarana, təəssüratlar ... Sənin üçün bacım

Xiffət çəkib yaşamaqdan,
Bezdim daha, dərdin alım.
Boş xəyalla dolanmaqdan,
Bezdim daha, dərdin alım.

Quzeylərin qarı mənəm,
Ötən simin zarı mənəm.
Yarı-dərddi, yarı-mənəm,
Bezdim daha, dərdin alım.

Közərmişəm közün kimi,
Dərd əhliyəm özün kimi,
Püxtələşdim sözün kimi,
Bezdim daha, dərdin alım.

Odundan od almayanlar,
Dərd anlamaz yanmayanlar,
Şahmar ilan çalmayanlar.
Bezdim daha, dərdin alım.

Dinlə məni Güləmayıl,
Zülüm, zülmət etdi şair,
Tanrı yazıb oldum qail,
Bezdim daha, dərdin alım.

Mən Tovuzlu, sən Qazaxlı,
Haqq yolunda əli çıraqlı,
Dilə gəlib Kürqıraqlı.
Üzdüm səni, dərdin alım.

Dilarə Girzanlı

MƏNİN MƏKANI

Gülamayil Muradın yaradıcılığında MƏN adlı bir qəhrəman var. Narahat bir qəhrəman. Özünü tanımağa və özünü tanıtmağa can atan (cəhd edən) MƏN. Qayğılıdı, dərdlidi. Həm də nikbindi. Qayğısına, dərdinə tale deyilən Tanrı ssenarisi, nikbinliyinə isə həyat eşqi, özünütəsdiqə yönələn inam eşqi rəvac verir. Doğrusu, bu nikbinliyə, inama mən də inanmaq istədim. Inandım da…

…Yerlə Göy arasında məsafə çox böyükdü. Yerdən aşağıda yer, Göydən yuxarıda göy var və intəhasızdı. Amma onların bitişiməsi də var və o qədər bitişir ki, Yerlə Göy arsında əndişələnənin nəfəsi təngiyənə qədər onu sıxır. Fəqət, ayağı yurdunda (torpaqda), əli Tanrının ətəyində (fəza sonsuzluğunda) olan adam Yerlə Göyü qovuşduran adamdı. Yerin dərdi o qədər üst-üstə yığılır ki,Tanrının ətəyindən yapışanın ətəyindən salxım-salxım asılan günahlılar o qədər çoxalır ki, bir də görürsən ki, Yerlə Göy Adəm övladını sıxıb, canından puçur-puçur söz çıxarır.

Mənim qabağımı niyə kəsiblər?
Yerə marağımı niyə kəsiblər?
Göyə ayağımı niyə kəsiblər?
Yol aç, bu dünyadan çıxıb gedim mən.

Və təntihatəntidə birdən MƏN adlı qəhrəman yada düşür, onu xilas cəfasına düçar olursan. Bax, Güləmayil Murad da bu taleyin, bu yığvalın yiyəsidi. Bu yolun yolçusudu. Tələsə-tələsə özündən özünə yol gedir - tanımaq və tanıtmaq istədiyi özünə.

Mən,
sükutun yamacında
Sən isə acında-
Məni
mənə döndərən şeirim,
Içimə yığ məni…

Şair könlünün tələtümünü sonda dünyanı şairanə dərkin təmkinli diqtəsi səhmanlayır.

Ay işığında,
Gecə qaranlığında,
Ulduzlar sırasında.
Yerlə göy arasında
Yaşar… yaşar
bir eşq adası.
Dünya…

Gülamail Murad bu səbəbdən fərqli şairədi. Ən azı regionun şairlərindən (dəqiqi şairə xanımlardan) fərqli olaraq o da Vidadinin, Vaqifin, Vurğunun, Dilbazinin və sazın köynəyindən çıxmağına baxmayaraq MƏN-ini soraqlaya-soraqlaya, axtara-axtara müasir şeirin bütün formalarına urcah oldu. Və bizim şeirin orbitindən çıxıb, yapon haykularına, nə bilim xokkilərə,.. tuş gəldi. Nəzər-diqqətə yönəldi. Sanballı xridarlara MƏNi haqqında söz dedirtdi. Düz dedirtdi.

Burası Gülamayil xanımın sənət kredosu, içinin istəyi. Ümumiyyətlə, istedadlı olmaq başqa məsələdi və G. Murad da istedadlı adamdı. Əvvəldən-axıra obrazlı düşünə bilir.

...Su üçün yaranan su da da ölər,
Hicran dənizində batır bir gəmi.

Zamandan asılmışam
İstini soyuğa dəyişən
küləklər kimi...

Onun kiçik şeirlərinə aforizmlər, müdrik deyimlər kimi də baxmaq olur. Şeiriyyətinin mayasını, ana xəttini düşüncə, təfəkkür motivləri şərtləndirsə də maraqlı təhkiyələrdən, danışıq dilindən gələn enerjidən də xali deyil.

Otları şehlimi çölün-çəmənin?
Qoynu çiçəklimi düzün-düzənin?
Varammı yadında mən Göyəzənin?
Dostlarım görüşə çağırır məni.

Gülamail xanım epik təfəkkürünü də sərgiləyə bilib. Nurani-pirani ağsaqqalımız Teymur Bünyadovun adına ismarladığı "Teymurun səsi" poemasında hər şey görüntülüdü.

Üzünü sevimli nəvəsinə tutub

Sən ki, aydan arısan,
Sən ki, sudan durusan.
Evimizin nurusan,
Ay mənim Murad balam

-dediyi bütün uşaqların psixaloji dünyasına da vara bilir.

Şairi birinci SÖZündən, ikinci ÖZündən tanıyarlar. Güləmail Muradın özüylə sözü birbirinə çox oxşayır. Bu isə ədəbi səmimiyyətin ölçüsüdü. Bu gözəl şairi yaxşı-yaxşı tanımağa dəyər. Onun ədəbi MƏNini haqq olan məqamında, məkanında görmək arzusuyla

Rəfail İNCƏYURD

ZAMANSIZLIQ VƏ İCTİMAİ-BƏDİİ KEÇİD

Ədəbi-ictimai struktur insanla dünya arasındakı qarşılıqlı əlaqələrin tənzimləyicisidir. Heç şübhəsiz, istedadlı şair Güləmail Muradın"Yazmadıqlarım qapımı döyür" kitabı da bu modelin struktur əsaslarını özündə təzahür etdirir.

Bilirik ki, ikili standartlar ədəbi müstəvilərdə də bəzən qabarıq xətt kimi özünü göstərir. Həyati anlamlara qarışıq cığır salan düşüncələr çox vaxt ictimai çəkisizliyin təsirində çat verir. Bu zaman çiy münasibətlər proyeksial- təyinedici formula işarələnir və zamansızlıqdan asılı sxolastika təfəkkürləri paslandırır. Bəlkə də dünyanın təzad boğçasını bu sistemsizlik müəyyən edir. İstedadlı şair Güləmail Muradın "Yazmadıqlarım qapımı döyür" kitabını oxuyandan sonra belə qənaətə gəlmək olur ki, təzadlar həm də altsistemdə təcəssüm edən ziddiyyətlərdən doğur.

Səmimi deyə ki, "Yazmadıqlarım qapımı döyür" kitabı bir məcrada elə təzadların özüdür. Kitabdakı "Kəndə gedəcəyəm çəhəri atıb", "Tutmuşam", "Eyləyir", "Tökülür", "Fırtına", "Məni axtar", "Görmədiyin yuxu" və s. şeirlərin ədəbi-xətti funksiyası eynisistemli həyati qabarıqlıq və bir də zamansızlığa alışmış müəllifin ziddiyyətlərə ədəbi-ictimai təsiridir. Bu kitabda fikri münasibətlər birkeçidli, ictimai-həyati qaynaqlar ikisistemlidir. Şair xanım zaman və zamansızlıqda ideal sərhəd axtaran ilhamının qarşısına arasıra keçilməzlik səddi də çəkir, onu müdhiş qorxuların təsirində əridir. Bu qənaət oxucu davranışlarına ədəbi norma qoysa da, vətəndaş yanğısı hər iki əhatəni ictimai söstlükdən qurtarır.

Sanki G.Muradın yeni kitabında bir-birinə aludə iki personaj (çəkil-şəxs) sonadək söhbətləşir. Bu əhatədə müəllif oxucuya özünün şəxs-kadr proyeksiyasını açır və bu iki əks formal anlayışın bir- birində təzahürünə ədəbi yanaşması ilə diqqət çəkir.

Məsələn:

Payız könül evim-
Yarpaqlar tökülür,
Günəş də qürub edəndə
Gözündən qəm-qüssə tökülür.
İnsanlardı qocalan.
Ey qocalmayan kədər,
Neçə yaşın var?

Yaxud:

Səndə ürək yoxkən,
Ürəkdən nə yazım axı,
Məndə olanı da şeirlər alıb.

Bu parçalarda müllif özünün şəxs-kadr fəlsəfəsini bəyan edir, oxucu diqqətini ikikeçidli həyat qaynaqlarına yönəldir. Əslində, əksmodern ideyaçılıqda qərar tutmaq G.Murada yaddır. Bəlkə də bu səbəbdən kitabda zəruri ictimaii proyeksiya təyinedici formul kimi xarakterizə olunur. Müəllif həyati reallıqla subyektivist nəzəriyyə arasındakı qabarıq normalara təsiredici fikirlərlə iz salır, fikirlərinin poetic mahiyyətini açır, metafiziki qatların təbəqələşmə faktlarını adi həyat qaynağı kimi verir:

Sənsiz yazıram.
Qolunu uzat,

Hazıram öz dünyama
Aparım səni.

Və ya:

İçində-
Zülümət gecənə
Bir işıq göndərirəm.
Sevmədiyin ürək.
Görmədiyin yuxu.

Göründüyü kimi, eşq modeli, həyat-sosial uyarlıq format, mövzunu predmetləşdirmə bacarığı müəllifin əsas qayəsidir. Onun bu tib bir sıra şeirlərində obyekt kimi seçdiyi şəxs (şəkil) modulu öz proyeksiyasını aşağıdakı müxtəlif zəruri proseslərlə aktuallaşdırır: 1) Müəllifin eşq-ictimai tonallıq aspektlərinə münasibəti bir neçə qatlıdır; 2) Ənənəvi əhatəsizliyə yanaşma bucaqları sistemlidir; 3) Baxış müstəviləri əhatəli, həm də əksinə, konkretdir. Diqqətçəkən haldır ki, müəllifin yeni kitabı yığcam mövzulardan ibarət olsa da, mətn vizuallığı ilə oxucunu konkretlikdən yayındırır. Ən sadə fikirdə belə yüksək iradi-emosional əhval yaratmaq, bir-birinə zidd nəzərləri eyni ovqatda birləşdirmək onun zamansızlığa münasibətini göstərir

Tiplər silsiləsi zəngin, təsvir və səciyyələndirmə üsulları rəngarəng olan G.Murad yaradıcılığında mədəni gerilik anlamı, ictimai ənəçilik, vətandaş-cəmiyyət münasibətləri, zaman və zamansızlıq zidiyyətləri və s. əsas mövzulardandır.

Seçdiyi obrazlar, müraciət etdiyi tipik mövzular G. Muradın mümkün həyata baxışının bir təcəssümüdür. O da çoxları kimi, uzun-uzadı təsvirlərdən qaçır, sözçülüyü sevmir.

Müəllif yeni kitabında da janr-vəzn xüsusiyyətləri proseduruna yaradıcı münasibəti ijə diqqət mərkəzindədir. Şeirlərindəki mətindaxili struktur-tipik mahiyyəti onun ümumədəbi qaynaqlara bələd olması ilə təzahur edir.

İnsan modeli, həyat-məkan format, mövzunu predmetləşdirmə G.Muradən ədəbi bacarığıdır. Onun obyekt kimi seçdiyi təzad modulu öz proyeksiyasını kitab boyu müxtəlif zəruri proseslərlə aktuallaşdırır. Müəllif sanki bu kitabda ideya və təsəvvürləri işləmək vəzifəsi icra edir. Həm də kitabdakı şeirlərin rasional-ədəbi forması onun praktiki müşahidə və vərdişlərindən qaynaqlanır.

Eksplikativ aspekt- zəruri momentləri üzə çıxarmaq cəhdləri G.Muradın yaradıcılıq uğurudur. Ümumi kateqoriyada universal anlayış yaratmaq, təsadüf və zərurətə spesifik nəzəri konsepsiya kimi bamaq onun ədəbi çevrədə yerini möhkəmləndirir.

Səmimi deyə ki, G.Muradın yeni kitabında toplanan şeirlər sadəcə informasiyaverici xassədən keçmir, həm də hadisə və müqayisələr haqda ədəbi-ictimai təsəvvür yaradır. Bu da onun müraciət etdiyi obyekti mütabiq əks etdirmək, proseslərin mahiyyəti və strukturunu aşkara çıxarmaq keyfiyyəti ilə çoxlarından fərqli təsir bağışlamasına stimul verir.

Sevindiricidir ki, müəllifin yeni kitabındakı şeirlər də bədii səviyyəcə qaneedicidir. O, bu kitabda da xalq yazı ənənələrini əsas götürüb; yəni, o, sintaksisi ləğv etmək iddasında olan ifrat sürrealistlərdən deyil. Elə bu səbəbə, onun avtorizə etdiyi şeirlərin çoxu oxucu diqqəti cəlb edir.

"Yazmadıqlarım qapımı döyür" kitabında antiteza da bir proses olaraq diqqət çəkir.

Düşüncəli şair təzadları, anlayış və ictimai vəziyyətləri ustalıqla qarşı-qarşıya qoyur, zaman əhatəsində modern fikirlər sıralayır.

Yeni kitabında da Güləmail Muradın bədii təxəyyülü yaradıcılıq fəaliyyətinin zəruri ünüsürü kimi çıxış edir. Duyğu və qavrayışları, təsəvvür və hissləri, təəssürat və münasibətləri xəyali aspektdə (lakin realistcəsinə) bərpa etməsi, nəticə etibarilə. Bədi

surətlər yaratması, bu təsnifi modilyasiya üzrə şüuri-proyeksial forma cızması onun estetik hissi ilə sıx bağlılıq yaradır.

Kitabdakı şeirlərin əksəri mücərrəd xarakterdən çıxır, həyatda gedən real hadisələrə əsaslanır. Bu zəruri proses müəllifin yaradıcı xassəyə əhatəli keçidini təmin edir

Kitabdakı şeirlərin bir qismi də tərkibcə mürəkkəb, məzmunca qarışıq-ictimai xarakterlidir. Bu şeirləri təşkil edən ədəbi komponentlər müxtəlif əlaqə və vasitələri özündə birləşdirməklə, bir az da metahissi proseslərə nüfuz edir.

Kitab bir qədər də ictimai inkişafa xidmət məqsədi güdür. Buradakı şeirlərin ictimai-bədii səciyyəsi qarşılıqlı münasibətlər və xarakterik altsistemli həyat formantıdır. Bu zəruri prosesin ədəbi sferası müəllifin dünyabaxışı ilə əhatədə öz inikasını tapa bilir.

Müəllif "Yazmadıqlarım qapımı döyür" kitabında ithaflara və uşaq şeirlərinə də geniş yer ayırıb. Əgər onun ithaflarında isti bir səmimiyyət görünürsə, uşaq şeirləri ikiproyeksiyalı-mürəkkəb baxışları ilə diqqət çəkir. Məsələn, "Qarğanön nağılı", "Uşaq gözünü yumur", "Və ya" və s. şeirlərində müəllif uşaq yaddaşının mürəkkəb prosesdə təzahürünə keçid edib, həyat və müasir uşaq formantı üzrə metahissi müqayisələr qurub. Onun digər şeirlərində olduğu kimi, uşaq şeirlərində də uzun illərin pərişanlığı və qarışıq-hissi zərurət qatı özünü epizodik-fərqli mükalimələrlə təyin edir.

Bir çox şairlər kimi, G.Muradın da şeirlərinin əsas anlamı tip və surətlər formantıdır. Bu kodeks onu adıçəkilən kitabında bir neçə yerdə İNSAN kultunu açmağa sövq edir. Bu anlamda təzahür edən bədii-prosedur tonallıq özündə sərhədsizlik faktları ehtiva edir. Kitabda diqqət çəkən məqamlardan biri müqayisələrin praktik uyarlığıdır. Bu zəruri moment kitabın mətnaltı və fikirdaxili mahiyyətini açmaqda oxucuya yardımçıdır.

Hikmət Məlikzadə
Azərbaycan Yazıçılar
Birliyinin üzvü

MÜNDƏRİCAT

Təbəssüm... Tənhalıq...ümid 3
Könül qapınızı açıq saxlayın!.....8
Yağmur şairi Güləmail Murad 10
Azərbaycanım, yaşa! 13
Bilmirəm, dərdimi kimə deyim mən? 14
Saz oxuyanda 15
Bir Leyli apardılar... 16
Azərbaycan-Türkiyə! 18
Dərd.....19
Naziləm xoş gəldi Azərbaycana!.....20
Kövrəlmə, kövrəlmə, qardaşım belə 22
Vurğunum mənim 23
Gəmi.....24
Ağladı.....25
Gözləyəcəyəm.. 26
Bu bahar... 27
Yad edəcək.....28
Məni seçdi o 29
Bəxt çiçəyim, bəxt gülüm.....31
Oglum evə yar gətirir 32
«Dur aç darvazanı, Ay ev yiyəsi» 34
Yol aç, bu dünyadan çıxıb gedim mən.....35
Kəndə gedəcəyəm şəhəri atıb.....36
Nə yaxşı.....38
Ay mənim Murad balam 39
Məryəm evə xoş gəlib 40
Qardaşım öldü 41
Bəxt gülü 42
Adın vətən üçün bir iftixardı 43
Neyçin ay Allah?.....44

SƏRBƏST ŞEİRLƏR

Allahdan xahiş.....49
Tutmuşam.....50
Eyləyir.....51
Yumur ki?! 52
Olmadı.....53
Qocalıram.....54
Yoxmu?.....55
Qarıyacaq 56
Tökülür.....57
Fırtına 57
Dağlar bulağı.....58
Yuyur məni.....59
Ad günün mübarək.....59

Durna qatarında.....61
Yetim qalacaq.....62
Birləşir.....64
Yaşayım.....64
Gölləri 65
Özünə 66
Səhər açılır 66
Sürgündə… 68
Eşq.....69
Yoxmu əlac?.....69
Şəhid atası 70
Dünya 71
Məni axtar 71
Səbir 72
Görmədiyin yuxu 73
Sülh 73
Olsun 74
Bir ömür kimi 74
Toydu 75
Xəyaln ölsün.....76
Sənə yağmaq 77
Perikmişəm.....77
Yağmayacağam... 78
Dərd cəkməklə 78
Bəxt gülü 79
Olardım 79
Mənəmmi?.....80
Doğulmaq üçün 81
Kişi 81
Məni 82
Küt gedər.....83
Oxşayır qəlbimizi 84
Üşüyür... 85
Ağlama... 86
Göyə çəkmiş.....87
Qazaxda doğulub, Bakıda yaşayan şair.....89
Dostluq–körpüsü 91
Hopuram.....93
Düymə axtarır.....94

Hayqular

Kəmərli şair zöhrənin deyimləri.....106

Uşaq şeirləri

Qarğanın nağılı təmsil 108
Nəvələrim.....109
Nogul balam İlyasım 110
Nağıl.....112
Tısbağanın nağılı.....113
Qarının nağılı 114
Xocalıda olan hadisələrlə bağlı 115
Məhəmmədim 116
Gəlmişəm 117

Muradın deyimləri.....118
Muradın deyimləri.....119
Və ya.....121

Poemalar

… Teymurun səsi.....130
Umud olsun!..... 149

Məna yazılanlar

Özgə necə olmalısan?! 158
Güləmailə.....159
Dolan sənsən 161
Güləmayil.....162
Mübarək 163
Gedəcək.....164
Dərdin alim.....166
Mənin məkanı.....168
Zamansızlıq və ictimai-bədi keçid 172

Güləmail Murad

YAZMADIQLARIM QAPIMI DÖYÜR

«Elm və Təhsil» nəşriyyatının direktoru:
professor Nadir MƏMMƏDLİ

Kompüter dizayneri: **Zahid Məmmədov**
Texniki redaktor: **Rövşanə Nizamiqızı**

Yığılmağa verilmiş **05.04.2012.**
Çapa imzalanmış **24.04.2012.**
Şərti çap vərəqi **11,5.** Sifariş **№ 68.**
Kağız formatı **84x108 1/32.** Tiraj **500.**

Kitab **«Elm və Təhsil»** nəşriyyat-poliqrafiya
müəssisəsində səhifələnib çap olunmuşdur.
E-mail: elm_ve_tehsil@box.az
Tel: 497-16-32; 050-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev döngəsi 8/4.